

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP nümayəndə heyətinin ÇKP Mərkəzi Komitəsinin departament direktoru ilə görüşü keçirilib



4

SƏS
№ 209 (7134)
16 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# COP29: Cənubi Qafqazda ilk dəfə Azərbaycanda




2

*Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin: Ümumiyyətlə, belə bir konfrans ilk dəfədir Cənubi Qafqazda keçirilir və bu, bildiyimə görə, gündəliyin təşkili üçün çox iş görmüş Azərbaycanın müstəsna rolunu vurğulayır.*

# Trampın qayıdışı ilə ortaya çıxan QORXU KOMPLEKSİ



7

## Bəhruz Quliyev: "Josep Borrelli Fransanın törətdiyi cinayətlərə haqq qazandırır"



6

## "Azərbaycan xalqı çox mehribandır" - HAMZA ADAM



13

## "Miras birinci növbəli vərəsəyə çatmalıdır"



16

## Cəmiyyətin COP29-a baxışı necədir?



12

## Dinlə cini necə qarışıq salmamalı?



8

# COP29: Cənubi Qafqazda ilk dəfə Azərbaycanda



***Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin: Ümumiyyətlə, belə bir konfrans ilk dəfədir Cənubi Qafqazda keçirilir və bu, bildiyimə görə, gündəliyin təşkili üçün çox iş görmüş Azərbaycanın müstəsna rolunu vurğulayır.***

# Vladimir Putin Prezident İlham Əliyevə zəng edib



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin noyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. SİA xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Telefon danışığı əsnasında dövlət başçıları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bu ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı əldə edilmiş razılaşmaları, həmçinin Rusiyanın Baş naziri Mixail Mişustinin bu günlərdə Bakıya səfəri zamanı təmaslarını nəzərə alaraq, sənaye və nəqliyyat sahələrində qarşılıqlı faydalı layihələrin praktiki olaraq həyata keçirilməsi məsələlərini müzakirə ediblər.

Tərəflər Azərbaycan-Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin hərtərəfli inkişafının davam etdirilməsinə dair qarşılıqlı maraqlarını bir daha ifadə ediblər. Müzakirə olunan məsələlərin icrası məqsədilə müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb.

Artıq bir neçə gündür ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Bakıda öz işinə başlayıb.









Günlərdir, dünyanın hər yerindən nümayəndələr qlobal iqlim dəyişmələrinə qarşı mübarizə tədbirlərinin birgə müzakirəsi üçün Azərbaycana gəlir. Azərbaycan böyük bir tədbirə ev sahibliyi edir və yaradılan hər bir şərait onu göstərir ki, ölkəmiz üçün bu kimi tədbirlərin keçirilməsində heç bir problem yoxdur. Və Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustinin dediyi kimi, bu tədbir həm də Cənubi Qafqazda ilk olaraq Azərbaycanda keçirilir. Bu isə onu təsdiqləyir ki, Azərbaycan regionda, eləcə də dünyada böyük gücə və nüfuza malikdir.

### Yaşıl dünya naminə

Azərbaycan nadir təbiətin, ümumilikdə ətraf mühitin qorunmasına həssaslıqla yanaşan ölkələr sırasındadır. 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı bunu təsdiqləyən amildir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir.

*Ardı Səh. 3*




# COP29: Cənubi Qafqazda ilk dəfə Azərbaycanda

Əvvəli-Səh-2

Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Təsadüfi deyil ki, Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

Digər tərəfdən isə Sərəncamda da deyildiyi kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Bu il iyul ayının 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu məsələyə münsibətini bildirərək demişdir: Bu, dünyada beynəlxalq arenada bir nömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq.

## Koordinasiya edilmiş media prosesi

COP29-un Azərbaycanda keçiriıməsi ilə bağlı verilən qərardan sonra Qərb mediasında bizə qarşı hücumlar başladı. Biz hücumlara məruz qalacağımızı əvvəldən bilirdik. Səbəb isə neft və qazla zəngin olan ölkə olmağımızdır. Çünki COP28-in ev sahibi olan Birləşmiş Ərəb Əmirliklərinin də eyni ittihamlarla üzləşdiyinin şahidi olmuşduq.

Dövlətimizin başçısı bu barədə deyirdi: Təəssüf ki, bizə qarşı çox geniş və koordinasiya edilmiş media prosesi başladı, biz ilk vaxtlar buna hazır deyildik. Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. Biz iqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq, mövzular bunlar olmalıdır. Bu gün bu göstəricilər inkişaf edən ölkələrin səviyyəsindədir, bəzən ondan daha aşağı, daha azdır, yoxsulluq beş faiz səviyyəsindədir və bəzi ölkələr bunu heç yuxusunda görə bilməz. Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf şəkildə, məsuliyyətli şəkildə həyata keçirilir. Buna baxmayaraq, ittihamlar davam edir. Ancaq deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların sayı azalır, bizim COP həyətimiz çox səmərəli işləyir, öz vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər keçirir. Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırılabilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir. Deyə bilərəm ki, qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır.

Bəli, Qərb medisının Azəbaycanla bağlı iddiaları təbii ki, koordinasiya edilmiş media prosesi idi. Əvvəlcədən müəyyən edilmiş və həyata keçirilən proses. Dövlətimizin başçısının hələ bir neçə ay öncə vurğuladığı kimi, tədbir yaxınlaşdıqca, bu proses də artmağa başladı. Lakin bu ittihamların heç bir əsası yoxdur və COP29-un işinə təsir qüvvəsi ola bilməz.

Məsələyə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində noyabrın 12-də Yaşıl Zonada "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda təşkil olunan konfransda çıxış edən Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva da münasibət bildirdi: COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan ətraf mühit məsələlərindən xeyli uzaq olan mülahizələr hesabına ədalətsiz hücum dalğası, yalan hekayətlər və ikili standartlar ilə üzləşib.

Azərbaycan COP29-a ev sahibliyi etmək öhdəliyini üzərinə götürməklə, Qlobal Cənub və Qlobal Şimal, eləcə də inkişaf etmiş və inkişaf edən ölkələr arasında körpülər salmağa çalışır. Məqsədimiz bu məsələnin həllinə verdiyimiz töhfəni ortaq gələcəyə verəcəyimiz töhfəyə çevirməkdən ibarətdir. Bununla belə, bəzi hallarda dəstək vermək və konstruktiv dialoq aparmaq əvəzinə, biz çoxsaylı Qərb mətbuatında böhtan və qarayaxma kampaniyalarının hədəfinə çevrilmişik. Məlumdur ki, həmin media əvvəlcədən cızılmış ssenariyə uyğun getməyən və ya qoyulmuş qaydalarla oynamayan, müstəqil siyasət yürüdən və öz milli maraqlarını qoruyan ölkələri gözdən salmaq üçün alətə çevrilib. Müəyyən ölkələrin təsiri altında olan bəzi iri media platformaları əmr ilə Azərbaycan haqqında mənfi hekayətləri yaymağa başlayırlar.

Böyük tədbir Bakıda böyük müvəffəqiyyətlə keçirilir, dövlətimizin başçısı dünya ölkələri prezidentləri, baş nazirləri və ölkələri təmsil edən nümayəndələrlə görüşür, müzakirələr aparılır. O müzakirələr ki, həm COP-a, həm də ölkələrimiz arasında qarşılıqlı münasibətlərin yaranmasına, inkişafına töhfəsini verir.

## Dünya gəncləri iqlim fəaliyyətlərinin ön cəbhəsində

Qeyd etdiyimiz kimi, COP29 çərçivəsində noyabrın 12-də Yaşıl Zonada "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda təşkil olunan konfrans özünəməxsusluğu ilə diqqət çəkdi. Tədbirin əsas məqsədi isə Mərkəzi Asiya və türkdilli dövlətlərin iqlim dəyişikliyinə qarşı mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və bu dövlətlərin gənclərini iqlim gündəliyinə cəlb etməklə beynəlxalq öhdəliklər istiqamətində görülən tədbirləri təqdim etməkdir.

Tədbirdə Birinci xanım Mehriban Əliyeva geniş və məzmunlu çıxışında COP29 ölkəsi seçilməyin bizim üçün böyük şərəf olduğunu bildirdi: Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir.

Birinci xanım dünyanın biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzə qaldığını vuğulamış və bu məsələdə ölkəmizin də istisna olmadığını bildirmişdir: Biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik.

...Mən qeyd etmək istərdim ki, qlobal istixana tullantılarının 0,1 faizi Azərbaycanın payına düşür. Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik.

Biz, həmçinin Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər "xalis sıfır atılmalar zonası"nın yaradılmasına diqqət yetiririk. Əsasən Günəş və külək enerjisi layihələri ilə bağlı artıq fəal iş aparılır. Yaşıl enerjinin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir.

Təbii ki, bütün bu kimi işlər Azərbyacan gəncləri üçün nümunədir və onları yaşıl dünyaya çağırışdır. Və sözsüz ki, gələcəyimiz gənclər olduğu üçün iqlim dəyişmələrinə qarşı mübarizə də qarşıda onların fəaliyyəti ilə mümkün olacaq. Bu nöqteyi-nəzərdən COP29 çərçivəsində belə möhtəşəm tədbirin keçirilməsi bütün dünya gənclərinin bu çağırışa cəlb edilməsi xarakterini daşıyır.

## Azərbaycan körpülər qurur

Bir neçə ay əvvəl dövlətimizin başçısı COP29-a hazırlıq ərəfəsində deyirdi: Təşkilati nöqteyi-nəzərdən mən sözün düzü, hər hansı bir çətinlik görmürəm. Çünki bizim təcrübəmiz kifayət qədər böyükdür. Nəticə etibarilə nə hasil ediləcək, bunu bəri başdan demək çətindir. Bir də ki, bu, artıq bizdən asılı deyil. Biz maksimum edə biləcəyimizi edəcəyik, körpülər quracağıq, Qlobal Cənubla Qlobal Şimal arasında təmasları gücləndirəcəyik. Ancaq əlbəttə, bu iqlim məsələsində əsas söz sahibləri təbii ki, Azərbaycan boyda ölkələr deyil. O böyük ölkələrdir ki, onları da bir araya gətirmək üçün biz indi səylər göstəririk.

Bəli, Azərbaycan postsovet məkanında ilk dövlətdir ki, COP29 kimi beynəlxalq tədbirə ev sahibliyi edir, dünya dövlətlərini bir araya gətirir. Bunun özü onun göstəricisidir ki, Azərbaycan kiçik dövlət olsa da, bəzi hallarda böyük dövlətlərə örnəkdir. Bunu pandemiya dövründə də gördük, torpaqlarımızın işğaldan azad olunduğu 44 gündə də, hətta birgünlük antiterror əməliyyatı zamanı da.

Bu gün isə COP29 kimi nəhəng tədbirə həm Azərbaycanın necə uğurla ev sahibliyi etdiyini, həm də qlobal iqlim dəyişməsinə qarşı mübarizəyə hansı təkliflərlə çağırış və kömək etdiyini görürük. Və düşünürəm ki, bu gün Azərbaycanda atılan addımlar, verilən qərarlar növbəti COP tədbirinədək o səviyyədə həyata keçiriləcək ki, artıq həmin sessiyalarda iqlim dəyişmələri ilə mübarizədə əldə olunan uğurlardan danışılacaq.

***Mətanət Məmmədova***

# YAP nümayəndə heyətinin ÇKP Mərkəzi Komitəsinin departament direktoru ilə görüşü keçirilib







***Xəbər verildiyi kimi, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir. Səfər çərçivəsində noyabrın 15-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsinin Altıncı Departamentinin direktoru xanım Van Min ilə görüş keçirilib.***







YAP nümayəndə heyətini salamlayan Van Min strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək keyfiyyətcə yeni mərhələyə qədəm qoyan Çin-Azərbaycan münasibətlərinin nümunəvi xarakter daşıdığını, ölkələr və partiyalararası çoxşaxəli əlaqələrin müsbət dinamikaya malik olduğunu və parlaq perspektivlər vəd etdiyini bildirib. Van Min qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində yüksək nüfuza malik iki dövlət arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi Avrasiyada təhlükəsizlik və işbirliyi nöqteyi-nəzərindən mühüm əhəmiyyət daşıyır. O, Azərbaycan ilə Çinin milli maraqlara əsaslanaraq beynəlxalq platformalarda bir-birinə daim dəstək göstərdiklərini xüsusi vurğulayıb.

Ölkəsinin yüksələn güc mərkəzi kimi qlobal müstəvidə strateji hədəflərindən söz açan Van Min Çinin digər tərəfdaş dövlətlərlə olduğu kimi, dost Azərbaycanla da əməkdaşlığa böyük əhəmiyyət verdiyini və milli maraqların təmini istiqamətində ortaq siyasi iradənin mövcud olduğunu diqqətə çatdırıb.

Azərbaycanın bəşəriyyət üçün taleyüklü məsələlərin həllində fəal roluna diqqəti cəlb edən Van Min ölkəmizin daha bir mühüm beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a uğurla evsahibliyi etməklə dünyaya yeni müsbət nümunə təqdim edəcəyinə inamını ifadə edib.

Van Min YAP nümayəndə heyətinin səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin, xüsusilə də iki hakim partiya arasında əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə dəyərli töhfə verəcəyinə, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əlaqələrində yeni səhifə açacağına əminliyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Çinin diplomatik əlaqələrinin mövcud olduğu 30 ildən artıq müddətdə ikitərəfli qaydada və beynəlxalq platformalar çərçivəsində münasibətlərin uğurla inkişaf etdiyini və əhəmiyyətli nailiyyətlər qazanıldığını söyləyib.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olmaqla tarixi ədalətsizliyi aradan qaldırdığını vurğulayan YAP Sədrinin müavini Avrasiyanın mühüm geostrateji məntəqələrindən olan Cənubi Qafqazda yaranmış yeni reallıqlardan bəhs edərək postmüharibə dövründə ölkəmizin təşəbbüslərinin sülhə, sabitliyə, təhlükəsizliyə və inkişafa hədəfləndiyini bildirib. O, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Çin Xalq Respublikasının Azərbaycanın beynəlxalq hüquq normalarına əsaslanan haqlı və ədalətli mövqeyinə birmənalı dəstəyinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

"İstər Azərbaycan, istərsə də Çin müasir beynəlxalq münasibətlər sistemində milli maraqlara hörmət prinsipinə əsaslanan ədalətli və çoxqütblü siyasi nizamın tərəfdarıdır. Multilateralizm tərəfdarı kimi çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verən, beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı barışmaz mövqe sərgiləyən və ikili standartları rədd edən ölkələrimiz müstəqil, prinsipial və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edirlər",- deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini bəşəriyyətin sağlam və xoşbəxt gələcəyinə hədəflənmiş təşəbbüslər irəli sürən və məqsədyönlü tədbirlər həyata keçirən Azərbaycanın bu günlərdə COP29-a müvəffəqiyyətlə ev sahibliyi etməsini diqqətə çatdıraraq Çinin bu istiqamətdə ölkəmizə dəstəyinin dostluq və tərəfdaşlıq örnəyi kimi təqdirəlayiq olduğunu söyləyib.

Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini bildirən Tahir Budaqov YAP-ın dost və tərəfdaş ölkələrin hakim partiyaları, o cümlədən Çin Kommunist Partiyası ilə səmərəli işbirliyinə malik olduğunu qeyd edib. "Heç şübhəsiz, YAP və ÇKP arasında əməkdaşlıq memorandumun imzalanması ilə partiyalararası münasibətlərdə yeni mərhələnin əsası qoyuldu. Dostluğun, qarşılıqlı hörmət və etimadın təzahürü olan memorandum bir çox mühüm sahələri əhatə etməklə gələcəyə yönəlik əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirən mühüm yol xəritəsidir", - deyən YAP Sədrinin müavini birgə fəaliyyət nəticəsində yeni tarixi uğurlara imza atılacağına əminliyini ifadə edib.

Görüş zamanı partiyanın İdarə Heyətinin üzvləri, millət vəkilləri Hikmət Məmmədov, Pərvin Kərimzadə, Elnarə Akimova, Ülviyyə Həmzəyeva, Azər Badamov, YAP Təftiş Komissiyasının sədri, millət vəkili Sevinc Hüseynova, Təftiş Komissiyasının üzvləri, millət vəkilləri Elman Nəsirov, Vüqar İskəndərov, Naqif Həmzəyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Gənclər Birliyinin üzvü, millət vəkili Səbinə Xasayeva Azərbaycan-Çin strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi olan YAP-ÇKP əməkdaşlığının hazırkı durumu və gələcək hədəflərlə bağlı fikirlərini bildiriblər.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparıblar.

Noyabrın 15-də YAP nümayəndə heyəti Çin Kommunist Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin, ÇKP Szyansu Vilayət Komitəsinin və BRICS Beyin Mərkəzləri Əməkdaşlığının Çin Şurasının birgə təşkilatçılığı ilə "Qlobal sivilizasiya təşəbbüsünün həyata keçirilməsi" mövzusunda keçirilən tədbirdə də iştirak edib. Eyni zamanda, nümayəndə heyətinin Nankin şəhərinin tarixi məkanlarına, Qədim Çin Dövlət İmtahanları Muzeyinə və Konfutsi Məbədinə ziyarəti təşkil olunub.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Çin pavilyonunda təşkil olunan paneldə iştirak edib






***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 15-də Kəmər və Yol Təşəbbüsü Yaşıl İnkişaf Koalisiyası (KYTYİK), Çin Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Şurası və Çin Qitələrarası Kommunikasiya Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan "İqlim dəyişikliyi üzrə Cənub-Cənub əməkdaşlığı və yaşıl inkişaf: keyslər və təcrübələr" panel müzakirəsində iştirak edib.***

AZƏRTAC xəbər verir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirin açılışında çıxış edən Leyla Əliyeva Qlobal Cənub bölgəsi ölkələri arasında dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi kimi sahələrdə əməkdaşlığın əhəmiyyətini və mövcud imkanları qeyd edib. Leyla Əliyeva, eyni zamanda, vurğulayıb ki, Azərbaycan Respublikası bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində mühüm addımlar atır.

Sonra Leyla Əliyeva tədbir iştirakçılarına IDEA İctimai Birliyi tərəfindən ətraf mühitin mühafizəsi, ekoloji balansın təmin olunması, eləcə də iqlim dəyişmələri ilə mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib. IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri həyata keçirilən ağacəkmə və təmizlik aksiyaları, vəhşi təbiətin bərpası və mühafizəsi, eləcə də bir sıra digər layihə və tədbirlərin nəticələrinə toxunub.

Yekunda Leyla Əliyeva iqlim dəyişmələri ilə mübarizə və yaşıl inkişaf naminə qlobal həmrəylik və əməkdaşlığın rolunu xüsusi vurğulayıb.

Qeyd edək ki, tədbir çərçivəsində Çinin ekologiya və ətraf mühit nazirinin müavini Jao Yinqmin, KYTYİK-nin həmsədri, Bezos Yer Fondunun prezidenti və baş icraçı direktoru Endryu Stir, KYTYİK İdarə heyətinin vitse-prezidenti Erik Solheym, ABŞ-ın Kolumbiya Universitetinin professoru Cefri Saks və digər rəsmi nümayəndə, ekspert və özəl sektor təmsilçiləri iştirak edib.

# YAP-ın Xətai və Nərimanov rayon təşkilatlarına yeni təyin olunmuş sədrlər ictimaiyyətə təqdim edilib











***Noyabrın 15-də Yeni Azərbaycan Partiyasının (YAP) Xətai və Nərimanov rayon təşkilatlarına yeni təyin olunmuş sədrlər ictimaiyyətə təqdim edilib. YAP Xətai rayon təşkilatının inzibati binasında keçirilən təqdimat mərasimindən əvvəl Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər güllər düzülüb, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.***

Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, Milli Məclisin deputatları Vüqar Rəhimzadə və Pərvanə Vəliyeva tarixi zərurətdən irəli gələrək yaradılan Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində xalqı öz ətrafında sıx birləşdirərək siyasi səhnədə yüksəlişə nail olduğunu deyiblər.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolu ilə irəliləyən müasir Azərbaycan daim qüdrətlənir, möhtəşəm uğurlar qazanır. Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən Heydər Əliyev siyasəti gələcək uğurların həlledici əsasıdır.

Sonra partiyanın Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib. YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev çıxış edərək ona göstərilən etimada görə təşəkkürünü bildirib, öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacağını deyib. Tədbirdə akademik Vaqif Abbasov və Xətai rayon Ağsaqqallar Şurasının sədri, şəhid atası Mürvət Əsgərov da çıxış edərək bu gün Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının böyük gücə çevrildiyini qeyd ediblər.

YAP Nərimanov rayon təşkilatının inzibati binasında keçirilən təqdimat mərasimindən əvvəl tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər güllər düzərək xatirəsini dərin ehtiramla anıblar.

YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev və Milli Məclisin deputatı Samir Vəliyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu, zəngin siyasi və dövlətçilik təcrübəsinə söykənən Yeni Azərbaycan Partiyasının ölkədə ən güclü, monolit siyasi təşkilat olduğunu bildiriblər. Vurğulanıb ki, şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz parlaq gələcəyə doğru daha inamla irəliləyir.

Sonra partiyanın Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib. YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev çıxış edərək təşəkkürünü bildirib, göstərilən etimadı layiqincə doğrultmağa çalışacağını vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü Zərifə Quliyeva, ərazi partiya təşkilatının sədri Ağaəli Hüseynov və Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev çıxışlarında YAP-ın Azərbaycan xalqının böyük inam və etimadını qazandığını, ümumxalq və qələbələr partiyasına çevrildiyini diqqətə çatdırıblar.

# “Avropa elə özü cəngəllikdir"



***“COP29 Birləşmiş Millətlər Təşkilatının böyük, beynəlxalq proyektidir. Bu proyektin Azərbaycanda keçirilməsi 200 dövlətin yekdil qərarı ilə verilib". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib.O bildirib ki, adətən belə tədbirlərin keçirilməsi üçün verilən qərarlar 2-3 əvvəl verilir, amma Azərbaycanla əlaqədar verilən qərar tədbirə 11 ay qalmış verilmişdi: "Buna baxmayaraq Azərbaycan bu tədbirə yüksək səviyyədə hazırlaşmışdı.***

Azərbaycana gələn nümayəndələr tədbirin yüksək səviyyədə keçirilməsini açıq şəkildə bəyan edirlər. Tədbirin təhlükəsizliyi, rahatlığı, işıqlandırılması baxımından yüksək səviyyədə təşkil edilməsini açıq şəkildə qeyd edirlər.Məsələ burasındadır ki, Azərbaycanın bu tədbiri keçirməsini istəməyən Qərb dövlətləri, boykot çağırışları ilə çıxış edən dövlətlər var idi. Məsələ Azərbaycan məsələsi deyildi. Bu tədbir beynəlxalq tədbir olduğu üçün bəşəri problemləri müzakirə etmək üçün böyük bir konfransdır. Tədbiri boykot edən dövlətlər Azərbaycanın imicinə xələl vurmaq üçün, Azərbaycanla bağlı tədbiri gözdən salmaq üçün boykot çağırışları edirdilər. Buna baxmayaraq tədbirə 196 ölkədən 70 mindən artıq nümayəndə gəlib. Bir çox dövlətlərin prezidentləri, rəsmi şəxslər iştirak edirlər. Tədbirin bu cür təşkil edilməsi tədbiri boykot edənlərə qarşı bir cavab idi. Bu barədə Azərbaycan Prezidenti öz məruzəsində geniş mesaj verdi.Tədbirdə iştirak edən dövlətlər və rəsmilər çıxışlarında öz problemlərini məruzə edirdilər. Azərbaycan tərəfi isə Azərbaycan reallıqları ilə yanaşı beynəlxalq problemləri də özü işıqlandırdı. Azərbaycan coğrafi baxımdan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən coğrafiyada yerləşir. İki qitəni birləşdirən məkanda Azərbaycanın apardığı siyasət balanslaşdırıcı və barışdırıcı siyasətdir.

Çünki Azərbaycan infrastrukturu Avropanı enerji təhlükəsizliyi ilə təmin edən bir dövlətdir. Orta Dəhliz layihəsi Azərbaycan üzərindən keçirilməkdədir. Şimal-Cənub dəmir yolu xəttinin işə düşməsi Azərbaycan üzərindən həyata keçirilir. ”Əsrin müqaviləsi” layihəsi Azərbaycanda imzalandı. Azərbaycan Avropanın 10-a yaxın dövlətini qazla təmin edən dövlətdir.Bu tədbir bir çox məqamları özündə göstərdi. Avropanın bəzi dairələri Azərbaycana qarşı qərəzli çıxışları ilə özlərini göstərməkdə idilər. Azərbaycan Prezidenti də bu çıxışlara qarşı adekvat cavab verdi. Xüsusilə də, Avropa rəsmilərinin ”Avropa evdir, qalan hissələr cəngəllikdir” kimi çağırışlarına Azərbaycan Prezidentinin unikal cavabı oldu. ”Avropa evdir” deyən rəsmilər açıq şəkildə tarixə ekskursiya etməlidirlər. Avropa sivilizasiyası bəşəriyyət üçün təhlükə yaradır. İstər birinci dünya müharibəsi, istər ikinci dünya müharibəsi, hazırda Ukraynada üçüncü dünya müharibəsi gedir. Onlar özlərini sivil cəmiyyət hesab edirlərsə, milyonlarla insanın qırılmasına niyə rəvac verilir? Sadəcə bu məntiqdən çıxış etsək, Avropa elə özü cəngəllikdir. Vəhşi qanunlarla idarə olunur. Güclü zəifi yeməkdədir. Bu üç dünya müharibəsinin beşiyi Avropadır. Avropa heç vaxt cənnət bağı ola bilməz.Tədbirin yüksək səviyyədə keçməsi Azərbaycanın imicinə müsbət divident gətirir. Azərbaycan Prezidenti qonaqpərvərliyi ilə, eyni zamanda tədbirə gələn rəsmilərlə ikitərəfli və çoxtərəfli görüşlərin keçirilməsi, Azərbaycan reallıqlarını müzakirə etməklə yanaşı beynəlxalq problemlərin də müzakirəsi diqqəti cəlb edən məsələlərdəndir”.

”Tədbirin yekununda ortaq bir qərar qəbul ediləcəyini hesab edirəm. Əgər Azərbaycan dünyada baş verən ekoloji tarazlığın pozulması ilə əlaqədar tədbirə ev sahibliyi edirsə, bu Azərbaycanın bəşəriyyətə müsbət mənada verdiyi bütöv tövsiyəsidir. Tədbirin Azərbaycanda keçirilməsi beynəlxalq aləmin diqqətini Cənubi Qafqazda baş verən hadisələrə yönəldir. Azərbaycan Cənubi Qafqazda aparıcı dövlətdir. Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra Ermənistana ilk sülh çağırışını etmişdi. Cənubi Qafqazda nəqliyyat infrastrukturlarının açılması üçün təşəbbüslə çıxış etməsi bir daha ölkəmizin sülhməramlı olmasını göstərir. Bu cür problemlərin həllində Azərbaycan aktiv rol oynayır. Azərbaycanın apardığı siyasət, Azərbaycan Prezidentinin çıxışı bir daha onu göstərdi ki, ölkəmizin bölgədə ədalətin bərqərar edilməsi üçün apardığı siyasət bəşəriyyət üçün də nümunə ola bilər” - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# Bəhruz Quliyev: “Josep Borrelli Fransanın törətdiyi cinayətlərə haqq qazandırır”



“Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə uğurla ev sahibliyi etməsi bəzi beynəlxalq təşkilatları, eləcə də Fransa, Hollandiya kimi dövlətləri ciddi narahat edir. Ona görə də hər cür qərəzli açıqlamalar yaymaqla və fikirlər səsləndirməklə beynəlxalq konfransın uğurlarına kölgə salmağa cəhd edirlər”. Bunu KİV-ə açıqlamasında ”Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib. Baş redaktor mövcud vəziyyətə əsaslanmaqla vurğulayıb ki, dünyada sülhün, təhlükəsizliyin və ətraf mühitin mühafizəsinə xüsusi önəm verən dövlətlər və xalqlar belə dairələrin Azərbaycana yönəlik qərəzli açıqlamalarına və hesabatlarına əhəmiyyətsiz yanaşmaqla ölkəmizin mövqeyini müdafiə edirlər: ”BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında 196 ölkədən 72 min nəfər insanın qeydiyyatdan keçməsi tədbirin yüksək səviyyədə baş tutduğunu təsdiqlədi. Konfransın ilk gündən iqlim dəyişmələri və ekoloji problemlərlə bağlı geniş və əhatəli çıxışlar oldu, təklif və ideyalar irəli sürüldü. Bütün dünyanın diqqətinin Azərbaycanda olmasında ciddi narahat olan Fransa, Hollandiya kimi dövlətlər və onların təsiri altında olan beynəlxalq təşkilatlar tədbirin gözdən salınmasına uğursuz cəhdlər göstərirlər. Xüsusilə də, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell siyasi etikadan və prinsiplərdən kənar fikirlər səsləndirməklə qeyd edib ki, Avropadan kənar ölkələr cəngəllikdir və bu əraziləri vəhşi qanunlarla idarə etmək lazımdır. Bununla Josep Borrelli Fransanın, Hollandiyanın və digər Qərb dövlətlərinin cinayət əməllər törətdiyini və bu əməllərə seyirçi qalmaqda maraqlı olduqlarını nümayiş etdirir. Təsdiq edir ki, Avropa İttifaqı və şəxsən o Fransanın müstəmləkə altında saxladığı ərazilərdə xalqlara divan tutmasına, amansız vəhşiliklər törətməsinə haqq qazandırır. Bu isə birbaşa cinayəti törədən fərdlər və qruplarla ortaq olmaq deməkdir”.

# “Ünvanlı sosial yardım ”Uşaq pulu” adlanan sosial müavinəti əvəz edə bilməz”



MÜNASİBƏT

“Təbii artımda enmə dinamikası qlobal hadisədir. Tək Azərbaycanda deyil, bütün dünya üzrə bu tendensiya özünü göstərir”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib. O bildirib ki, Azərbaycan üçün heç vaxt bu qədər xarakterik olmayıb: ”Azərbaycanda həmişə təbii artım artan dinamika ilə özünü göstərib. Çox əfsuslar olsun ki, son bir neçə ildir ki, Azərbaycanda təbii artımda enmə müşahidə olunur. Bunun da bir çox səbəbləri var. Birinci səbəbi odur ki, Azərbaycanda gənclərin sayında azalma var. On il əvvəl Azərbaycanda gənclər ölkə əhalisinin təqribən 29-30%-ni təşkil edirdisə, bu gün Azərbaycanda gənclər əhalinin təqribən 20-21%-ni təşkil edir. Gənclərin bir hissəsi xaricə müxtəlif məqsədlərlə gedirlər. Gənclər kariyera, təhsil arxasınca gedirlər. Həm də evlənmə yaşı artıb. Əvvəl tez ailə qururdular, bu gün isə qızlar ən tez 24-25 yaşında, oğlanlar isə 30-35 yaşında ailə qururlar. Eyni zamanda boşanmaların sayının artıb. Boşanmalar çoxaldıqca təbii artım da aşağı düşməlidir.



Azərbaycanda uzun müddət təkcə SSRİ dövründə deyil, ondan əvvəlki dövrdə də çoxuşaqlı ailələr üstünlük təşkil edib. Ancaq SSRİ dağıldıqdan sonra Azərbaycan adamı qlobal dünyaya açıldıqdan sonra düşüncələrində dəyişiklik oldu. Əgər əvvəllər çoxuşaqlı ailələr trend idisə, bununla bağlı cəmiyyətdə tendensiya hakimlik edirdi. Hətta Böyük Vətən müharibəsindən sonra itkiləri doldurmaq üçün SSRİ rəhbərliyi tərəfindən demoqrafiya siyasət təşkil olunurdu, stimullaşdırıcı dəstək tədbirləri həyata keçirilirdi. Çoxuşaqlı ailələrə müavinətlər verilməsi, əlavə imtiyazların verilməsi, ”qəhrəman ana” statusu var idi. SSRİ dağıldıqdan sonra bütün bu motivasiya, dəstəkverici tədbirlər aradan götürüldü. Azərbaycan müstəqilliyə qədəm qoyduqdan sonra insanlar qlobal dünyaya açıldı, bundan sonra başa düşdü ki, çoxuşaqlı ailə yox, az uşaq, amma keyfiyyətli uşaq böyütmək lazımdır. Buna görə də Azərbaycan ailəsində ailə planlaşması artıq dəyişməyə başladı. Ailə planlaşmasında bir, iki, ən yaxşı halda üç uşağa üstünlük verildi. Beləliklə də, ailə planlaşması ilə bağlı insanların düşüncəsinin dəyişməsi də təbii artımı ləngitdi.

Digər mühüm məqam ondan ibarətdir ki, insanlar indiki şəraitdə daha çox imkanlarına, şəraitlərinə uyğun ailə planlayırlar. Həmişə çoxuşaqlı ailələr kasıb olublar. Belə bir söz var idi ki, kasıbın nəyi də olmasa, uşaqdan bol olur. Ancaq görürük ki, insanlar daha eqoistdir, uşaq məsuliyyəti, qayğıları ilə yaşamaq istəmirlər. Həm də çoxuşaqlı ailələrin olması üçün dəstək layihələri olmalıdır. Hesab edirəm ki, Azərbaycan hələ ki, buna fokuslanılmayıb. Təbii artımda ona görə bir qədər ləngimə var. Əvvəllər həm də çoxuşaqlı ailələrin olması üçün xalq arasında ”Uşaq pulu” adlanan sosial müavinətlər var idi. O kəsildikdən sonra çoxuşaqlı ailəyə maddi maraq da azaldı. Əgər təbii artımın inkişafını istəyiriksə, ”Uşaq pulu” adlanan sosial müavinətləri bərpa etməliyik. Bildirirlər ki, ünvanlı sosial yardım onu əvəz edir. Belə düşünmürəm. Ünvanlı sosial yardım ”Uşaq pulu” adlanan sosial müavinəti əvəz edə bilməz. Çünki ünvanlı sosial yardıma haradasa 160 min uşaq düşüb. Bəs digər uşaqlar necə olsun? Halbuki, Azərbaycanda 2 milyon 700 minə yaxın uşaq var. Bu baxımdan təbii artımın enməsi bizi düşündürürsə, çalışmalıyıq ki, təbii artımı stimullaşdıran dəstək layihələri həyata keçirək. O cümlədən, müavinətləri bərpa edək”.

**Söylü Ağazadə**

***Amerikada seçkilər keçirildi və Donald Tramp yenidən hakimiyyətə qayıtmaqla, Ağ Evdə "rəhbər" dəyişdi. Sözsüz ki, bununla nələrinsə bitdiyini düşünmək olmaz və hələ dinamizmin bundan sonra davam edəcəyi gözlənilir. Trampın hakimiyyətə qayıdışı ilə əlaqədar olaraq, əlbəttə ki, bütün dünya ölkələrinin gözləntiləri var. Xüsusən də Ermənistanın bununla bağlı gözləntiləri tamamilə fərqlidir və hayların qorxu kompleksini görməmək mümkün deyil.***

# Trampın qayıdışı ilə ortaya çıxan QORXU KOMPLEKSİ



### Rəsmi Vaşinqtondan fərqli yanaşma gözləyən hayların kürkünə birə düşüb

Təbii ki, böyük dövlətlərin strategiyası da öz miqyasına uyğun olaraq, daha genişdir və bunu hər zaman müşahidə etmişik. Xüsusən də Tramp Ağ Evə yenidən qayıdandan sonra həmin strategiyanın daha da genişlənəcəyi qənaətində olanlar az deyil.

Hər kəs bilir ki, xırda dövlətlərdən fərqli olaraq, daha böyük dövlətlər daha mürəkkəb istiqamətdə siyasi xətt tuturlar. Həmin iri dövlətləri bəzən daha dərin sularda üzən gəmilərə bənzədirlər və Ermənistan kimi xırda dövlətlər həmin nəhəng gəmilərin yanında kiçik qayığa bənzəyir və heç də "təlatümlərə" tab gətirəcək sayılmırlar. Həm də nəzərə almaq lazımdır ki, iri gəmilərin yanına sığınmağa çalışan kiçik qayıqlar həmin gəmilərin "lövbər" vurduğu zamanda belə təhlükə ilə qarşılaşa bilərlər. Məhz elə ABŞ kimi çox böyük dövlətin yanında qərarlaşmaq, itaəti altında olmaq, bir sözlə, həmin iri gəmilərin yanında, yaxud nəzarətində belə "üzmək" Ermənistan üçün həddindən artıq təklükəli sayılır. Elə erməni cəmiyyətində müşahidə edilən həyəcan özü belə bu təhlükənin təzahürü kimi görünür. Görünən odur ki, haylar Donald Trampın "qayıdışından" bərk narahatdırlar. Bəlkə də Baydenin qanadı altına sığınaraq, bir qədər rahatlandıqlarını zənn edənlər indi yuxularını da qarışdırıblar, çünki heç də əvvəlki kimi olmayacağının fərqindədirlər. Haylar bilirlər ki, bu vaxta qədər "buyruq qulu" kimi amerikalıların ssenarilərinə uyğun davranmaları bundan sonra işlərinə heç də yaramaya bilər. İndi ermənilər xüsusən də elə hesab edirlər ki, Baydenin "sadiq nökərləri" olduqlarına görə də cavab verə bilərlər və hər halda bu qənaətə gələnlər Trampın ona rəqib olmasından qorxurlar deyə belə fikirləşirlər. Sözsüz ki, bu da nəzərə alınacaq məqamdır və ermənilər düşünürlər ki, Tramp onlara məhz Bayden kimi "yaxın" ola bilməz. Amma heç də bu, hamısı deyil və erməniləri daha çox qorxudan məhz ABŞ kimi nəhəng bir dövlətin hələ bundan sonra hansı siyasi xətti tutacağıdır. Hər halda, hayların ilk ağıllarına gələn Amerikanın öz mənafeyi naminə siyasət aparacağı, ələlxüsus da Ağ Evin yeni rəhbərinin tamamilə fərqli şəkildə yanaşacağı məsələsidir. Yəni, ermənilər bilirlər ki, sonsuza qədər amerikalılar tərəfindən dəstəklənəcək, maddi yardımlarla, vəsaitlərlə təmin ediləcək deyillər. Ən azından rəsmi Vaşinqtonun bundan sonra fərqli istiqamət götürəcəyinə əmindirlər. Əmindirlər ki, Respublikaçılar məhz Demokratlardan fərqli yanaşma ortaya qoyacaqlar. Yaxud da, Trampın məhz Baydenin yolunu getməyəcəyinə əmindirlər və hayların kürkünə də birə elə buna görə düşüb.

### Ermənistan kimi çox xırda ölkələri nələr gözlədiyi hələ məlum ola bilməz

ABŞ elə bir dövlətdir ki, kimin "rəhbər" olmasından asılı olmayaraq, öz istədiyini bütün dünyaya sırımağa çalışır və bu vaxta qədər olduğu kimi, bundan sonra da eyni şəkildə davam edəcək. Yəni, rəsmi Vaşinqton üçün lap əvvəldən bəlli siyasət var. Doğrudur, rəhbərin, yəni, prezidentin dəyişməsi ilə hansısa dəyişikliklər gözlənilləndir, amma siyasi xəttin dəyişəcəyini ağıla belə gətirmək mümkün deyil. Daha dəqiq desək, yenə də amerikalılar hegemonluq iddiasındadırlar və hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq, bu məsələdə qətiyyən güzəştə gedəcək deyillər. İstər Bayden olsun, istərsə də Tramp olsun, yenə də rəsmi Vaşinqton hansısa ölkələrə öz "diqtəsini" etməyə çalışacaq və bu məqamda da Ermənistan kimi çox xırda ölkələri nə gözlədiyi hələ məlum ola bilməz. Elə qorxu kompleksi də bununla bağlıdır. Çünki haylar indi çox qaranlıq bir durumda özlərini hiss edirlər və qarşılaşacaqlarının nədən ibarət olduğunu qətiyyən bilmirlər. Eyni zamanda, Ermənistanın nə müstəqil, nə də suveren siyasəti yoxdur deyə, xüsusən də rəsmi İrəvanın "itaətkar" olması fonunda hayları qorxu bürüyüb. Cənubi Qafqazda küncə qısılmış vəziyyət qalan ermənilər bu vaxta qədər Baydenin "qanadı" altına sığındıqlarını düşünürdülərsə, bununla "təskinlik" tapırdılarsa, indi bu təskinlikdən də məhrum olublar.

Xüsusən onu da nəzərə almaq lazımdır ki, ABŞ kimi tanınan ölkəni "ideallaşdırmaq" da, bu fonda həmin dövlətə sığınmaq da, güvənmək də mümkün deyil. Əhali arasında yoxsulluq, narkomaniya, cinayət, nizamsız miqrasiya, çoxlu parazitlər olduğu halda, bu ölkəni hansısa formada arxa və dayaq saymaq da axmaqlıqdır və indi bu axmaqlıqlarının fərqində olmaları da erməniləri qorxuya salıb. Haylar özləri də yaxşı bilirlər ki, onları demokratiya nağılı ilə qızışdırıb ortaya salan və "oynadan" ABŞ, özünün çaşqın və müəmmalı ikipartiyalı seçki sistemini ilə qətiyyən nümunəvi demokratik ölkə sayıla bilməz. Amma onu da yaxşı bilirlər ki, bu ölkənin özünün davamlı inkişaf paradiqması var və şərti olaraq, respublikaçılarla demokratlar arasındakı səhnələşdirilmiş və qondarma "mübahisə" bunun fonunda çox gülünc görünür.

Diqqətə çatdıraq ki, erməni əsilli ekspertlər özləri də elə hesab edirlər ki, Trampın qələbəsi haylar üçün heç də arzuolunan deyil. Yəni, ən yumşaq şəkildə desək, Respublikaçıların və onların liderinin hakimiyyətə qayıdışı erməniləri qətiyyən qane edə bilməz. Məsələn, amerikalı erməni əsilli alim Suren Sarkisyan hesab edir ki, Baydenin prezidentlik illərindən fərqli olaraq, indi ABŞ-da hakimiyyətin dəyişməsi ilə Ermənistan-Amerika münasibətləri sferasında müəyyən passivlik olacaq. Başqa bir erməni əsilli politoloq Stepan Danielyan Nikol Paşinyanın "yanlış yol" seçdiyindən təəssüfləndiyini gizlətmir. Onun fikrincə "Gürcüstan və Azərbaycan hakimiyyəti Trampla yaxın olduğu halda, Paşinyan hakimiyyəti altında olan Ermənistanın demokratlara ümid bağlaması yanlışlıq olub. Yəni, artıq ABŞ-ın demokratiya adı altında qurduğu oyunun, özü də Baydenin rəhbər kimi bu oyunu sırımağa çalışdığının yanlışlığı barədə qənaətə gələn ermənilər heç də azlıq təşkil etmir, çünki onlar alət olduqlarının fərqindədirlər. Həm də bilirlər ki, bundan sonra alət olmaları da onlara "kömək" olmayacaq.

Bəli, hayların "başbilənləri" düşünürlər ki, Tramp üçün prioritet bütün dünyada demokratik dəyərlərin təbliği deyil, doğma ölkəsinin problemlərinin həlli və özünün istədikləridir. Bu vaxta qədər demokratiyanı "bayraq edən" haylar artıq başa düşürlər ki, daha əllərində bayraq edəcək bir məqam yoxdur. Bilirlər ki, bundan sonra demokratiya adında bəhanələri də heç kimə lazım olmayacaq. Daha ermənilər demokratiya barəsində yalandan "ağız dolusu" danışaraq, heç beynəlxalq qurumların da, beynəlxalq ictimaiyyətin də başını "gicəlləndirə" bilməyəcəklər. Çünki onlara bunu etdirən də Bayden idi və ondan fərqli olaraq, Trampın belə bir marağının olmadığını ermənilər hələ çoxdan bilirdilər. Məhz ona görə də seçkidən əvvəl də bununla bağlı "həyəcan təbili" çalırdılar və qorxularını da gizlətmirdilər. Ermənistana məxsus mətbuat səhifələrində məhz Trampın qayıdışı ilə bağlı qorxunu və həyəcan təbilini təsdiq edən yazılar da kifayət qədər idi və indi onların sayının daha da artması özü də qorxu kompleksinin olduğunu birmənalı şəkildə təsdiq edir.

### Haylar vəziyyəti tamamilə fərqlidir və erməni cəmiyyətində müşahidə edilən qorxu kompleksi də başadüşələndir

Bir məqamı da diqqətdən yayındırmaq olmaz ki, Donald Trampın İrana qarşı düşmən kimi yanaşması da var. Yaxşı bilirik ki, Tramp hər zaman rəsmi Tehrana qarşı sərt mövqe nümayiş etdirib. Bunu ermənilər daha yaxşı bilirlər və nəzərdən qaçırmırlar, çünki bu, daha çox onları maraqlandıran, daha doğrusu, "incidən" məqamdır. Əvvəla ona görə ki, Ermənistan hər yerdən əli üzüləndə İrana tərəf əl açır və rəsmi İrəvan köməyi də, dəstəyi də Tehrandan alacağına ümid edir. Haylar hələ üstəlik İranın tərəfini də saxlayırlar. İranla uzun zamandır Ermənistan "eyni bir daşın altında" gizlənir. Bunun da indiki durumda rəsmi Vaşinqtona xoş gələcəyini heç qətiyyən ağıla belə gətirmək olmaz. Xüsusən də Donald Trampın sadalanan həmin məqamları nəzərdən qaçıracağı qətiyyən inandırıcı görünmür. Hayların yuxularını qarışdırmalarının, Trampın qayıdışı ilə orataya çıxan qorxu kompleksinin bir səbəbi də məhz budur.

Bəzən haylar ABŞ-la əlaqələr, münasibətlər məsələsində Ermənistan və Gürcüstan arasında paralellər aparmağa cəhd edilər. Bir çoxları da etiraf edirlər ki, belə paralellər aparmaqda da yanılırlar. Həqiqətən də belə bir müqaisə yanlışlıqdır. Çünki Ermənistan heç də Gürcüstan kimi bir dövlət deyil. Gürcüstan ən azından iqtisadi baxımdan Ermənistanla müqaisəyə belə gəlməyən dövlətdir. Bu ölkənin hansısa məqamda Amerikaya, Qərbə müqavimət göstərməyə gücü çatır və müstəqil, süveren siyasət yürütməyə də meyilli olduğu müşahidə edilir. Görünən odur ki Gürcüstanda vəziyyət tamam başqadır. Müşhidələr təsdiq edir ki, həmin ölkədə parlament seçkiləri keçirildi və hansısa mənada rusiyayönlü, yaxud da "Rusiyaya daha sərfəli olan" tərəf, yəni, "Gürcü arzusu" qalib gəldi. Bir sözlə, Qərbə rəqib olan tərəfi belə qəbul etməkdən gürcülər çəkinmədilər. Hətta müxalifət də meydana çıxdı. Gürcülərin indi ermənilərə baxanda Cənubi Qafqazda siyasi cəhətdən fəal xalq olması da öz təsdiqini tapdı. Ermənistan isə müti şəkildə ABŞ kimi hegemon dövlətin oyunlarının alətinə çevrilməkdən başqa yol tapa bilmir. Artıq rəsmi İrəvan məhz Vaşinqtonun yürütdüyü siyasətə təslim olub və heç bir iradə nümayiş etdirmək iqtidarında da deyil. Haylar uduzduqları, məğlub olduqları müharibədən sonra, guya ki, Paşinyan tərəfdarlarının "zəbt etdiyi" Milli Məclisdə öz iradələrini göstərməyə qalxdılar. Bu toplum vəhşiliyi və revanşizmi iradə nümayiş etdirmək sayırsa, bərk yanılır. Parlamentə soxulmaq, öz xislətlərinə uyğun vandallıq etmək, stulları sındırmaq, Paşinyanın saatını oğurlamaq siyasi iradə deyil. Bu elə qorxu kompleksinin daha bir təzahürüdür, hansıki bunu ermənilər özləri daha dəqiq bilirlər. Elə bu baxımdan da haylar öz durumlarını hamıdan yaxşı başa düşürlər və erməni cəmiyyətində müşahidə edilən qorxu kompleksi də həm başadüşələndir, həm də gözləniləndir.

***İnam Hacıyev***

# “Ölkəmizin COP29-a ev sahibliyi etməsi böyük uğurdur”




*“Hər kəs razılaşar ki, COP29 həm siyasi, həm enerji sektorunun, həm də miqrasiya sahələrinin inkişafı nöqteyi-nəzərindən çox vacib tədbirdir. Ölkəmizin belə bir tədbirə ev sahibliyi etməsi böyük uğur olmaqla bərabər, həm də malik olduğumuz potensialı bütün dünyaya göstərmək baxımından da önəmlidir. Şübhə yoxdur ki, siyasi nöqteyi-nəzərdən konfransın ölkəmizdə keçirilməsi beynəlxalq münasibətlər sistemində məhz Azərbaycanın rolunun daha da inkişafına və onun yerinin güclənməsinə gətirib çıxaracaq”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.*

ŞƏRH

O bildirib ki, ölkə başçısı da COP29-un açılış mərasimindəki çıxışında bu məqama toxunaraq bu tədbirə ev sahibliyi etmək səlahiyyətinin Azərbaycana verilməsini beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi olaraq təsnif etdi: “Bu gün ölkəmiz Şimal ilə Cənub, Qərb ilə Şərqin qovşağında yerləşməklə müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpüləri yaratmağa müvəffəq olub. Bunun da səbəbləri var. Uzun dövr ərzində sivilizasiyalar arası və dinlər arası dialoq mühiti formalaşdırmağa müvəffəq olan ölkə olaraq dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etməyimiz, paralel olaraq Avropa İttifaqının on ölkəsi ilə strateji tərəfdar qismində çıxış etməyimiz bizə rahat şəkildə müxtəlif beynəlxalq iştirakçılar arasında körpü rolu oynamağa imkan verir.

Prezidentin çıxışında önəmli məqamlardan biri Azərbaycanın Yaşıl gündəliyi və alternativ enerji mənbələrinin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin təqdimatı oldu. Məlumdur ki, ölkəmizin bərpaolunan enerjidə texniki potensialı quruda 135 giqavat, dənizdə isə 157 giqavat təşkil edir. 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırır. 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. BƏƏ-nin Masdar şirkəti, Səudiyyə Ərəbistanının “Acwa Power” şirkəti və Birləşmiş Krallığın bp şirkəti ilə bir sıra layihələr həyata keçirilir və ya keçirilməsi planlaşdırılır.

Ümumiyyətlə isə qeyd edim ki, Azərbaycan olaraq biz iqlim dəyişiklikləri ilə bağlı götürdüyümüz öhdəliklərə uyğun olaraq bir sıra işlər görmüşük və bu hər kəs tərəfindən təqdir olunur. Belə ki, 1990-2022-ci illər üzrə aparılmış İstilik Effekti Yaradan Qaz Emissiyalarının inventarlaşmasına əsasən 2022-ci ildə Azərbaycan baza ili olan 1990-cı illə müqayisədə emissiyaların 34,2% azalmasına nail olmuşdur. Bütün bunlar şübhəsiz ki, ölkədə həyata keçirilən uğurlu ekoloji siyasətin nəticəsində mümkün olmuşdur. Ətraf mühitə zərər vurmayan yüksək texnologiyalardan istifadə, yaşıl enerji mənbələrindən istifadənin genişləndirilməsi, istilik elektrik stansiyalarında mazutdan istifadənin dayandırılaraq daha təmiz yanacaq olan təbii qaza keçilməsi, məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi, yeni meşə massivlərinin salınması və görülmüş digər işlər bunun bariz sübutudur.

Prezidentin çıxışında digər vacib məqam isə Azərbaycana qarşı hücumların cavablandırılması ilə bağlı oldu. Azərbaycanı neft-qaz ölkəsi olmaqda ittiham edən ölkələrə konkret faktlarla cavab verən president bildirdi ki, ölkəmiz qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Və bu baxımdan da zərələrin qazların atılmalarındakı payımız cəmi 0,1 faiz təşkil edir ki, bu da Azərbaycana qarşı kampaniya aparan ayrı-ayrı ölkələrdən qat-qat aşağıdır.

BMT-nin iqlim dəyişiklikləri ilə bağlı hesabatlarına da baxdıqda görürük ki, inkişaf etmiş ölkələrin zərərli qazların atmasferə buraxılmasındakı payı digər ölkələrlə müqayisədə həddən artıq çoxdur. Məsələn G20 ölkələrinin bu menada payı 80 fazıə çatır. Odur ki, zəngin təbii sərvətlərə malik olduğumuza görə bizim hədəfə götürülməyimiz qərəz və riyakarlıqdan başqa bir şey deyil.

Amma kimin nə deməsindən asılı olmayaraq, Makron və onun kimilərin ölkəmiz əleyhinə boykot çağırışlarına baxmayaraq COP29-da 196 ölkədən nümayəndələrin iştirakı, 80-dən artıq prezident, vitse-prezident və baş nazirlərin tədbirə qatılması onu deməyə əsas verir ki, dünya böyük ölçüdə bizim haqlı olduğumuzu qəbul etdi və bununla da anti-Azərbaycançı qüvvələrə sözün əsl mənasında dərs vermis oldu”.

***Səbinə Hüseynli***

# Lənkəranda 60 yaşlı kişi özünü GÜLLƏLƏDİ



***Lənkəran sakini odlu silahdan açılan atəş nəticəsində xəsarət alıb. SİA xəbər verir ki, Lənkəranın Zövlə kənd sakini 1964-cü il təvəllüdlü Rövşən Qələmirzə oğlu Tarverdiyev odlu silahdan açılan atəş nəticəsində xəsarət alaraq rayon mərkəzi xəstəxanasına çatdırılıb. Ona döş qəfəsinin güllə yarası diaqnozu qoyulub və əməliyyata götürülüb.***

Yaxınlarının deməsinə görə, Q.Tarverdiyev Bakı şəhərində yaşayır və dünən anasının il məclisinə gəlib. Faktla bağlı araşdırma gedir.



Elçin Bayramlı

# Dinlə cini necə qarışıq salmamalı?

**Son vaxtlar Azərbaycanda siyasi və ictimai sabitliyi pozmağa çalışan qüvvələrin fəallaşdığı hiss olunur. Öncəki cəhdlərdən (etnik, sosial, siyasi qarşıdurma yaratmaq) bir nəticə əldə edə bilməyən xarici qüvvələr indi də dini məsələləri orta atıblar və cəmiyyətdə parçalanma yaratmaq üçün ölkədəki əlaltılarına yeni sifariş veriblər. Lakin Azərbaycanda dini tolerantlıq hökm sürür, heç kim dininə və əqidəsinə görə təzyiqlərə məruz qalmır, dini mənsubiyyətə görə ayrı-seçkilik yoxdur, dini azlıqlara qarşı ayrı-seçkilik aparılmır. Təsadüfi deyil ki, artıq ölkəmiz özünün dövlət-din münasibətləri modeli ilə təkcə yerləşdiyi coğrafi regionun deyil, dünyanın ən yaxşıları sırasındadır.**

Belə görünür ki, Azərbaycanın sürətlə hərbi, iqtsadi cəhətdən möhkəmlənməsi, siyasi nüfuzunu artırması, regionda söz sahibinə çevrilməsi bəzi xarici dairələri yaman narahat edir. Radikal dindarların əsas məqsədi Azərbaycanı sivil, demokratik inkişaf yolundan döndərmək, bəzi digər ölkələr kimi Azərbaycanda radikal teokratik cəmiyyət qurmaq, ölkəmizi qeyri-stabillik nümunəsinə çevirməkdir. Bu məsələdə (ölkədə radikal dindarlığın və mövhumatın güclənməsində) xarici dairələrin böyük rolu olduğu şübhəsizdir. Məlum olur ki, kobud desək, dava “din davası deyil, dən davasıdır”.

Azərbaycan monolit dövlət, vahid xalq, tolerant cəmiyyət modelini seçib və bu yoldan dönməyəcəyini ortaya qoyub. Azərbaycanda etnik və dini qruplar arasında elə qırılmaz bağlar var ki, bunu heç bir daxili və xarici qüvvə qoparmaq iqtidarında deyil. Buna görə də, hər hansı dini qrupların, onların xarici havadarlarının əhali arasında çaxnaşma yaratmaq, din adından istifadə edib öz bəd niyyətlərini həyata keçirmək cəhdləri heç bir səmərə verməyəcək.

Ölkədə dini maarifləmənin zəif olması, bu fonda bəzilərinin müxtəlif təriqətlərə meyl etməsi 2 əsas səbəblə bağlıdır- dinə elmi yanaşmanın olmaması və social problemlər. Düzgün dini baxışların olması üçün mütləq şəkildə məktəblərdə din dərsləri keçirilməlidir. Biz müsəlman ölkəsiyik və həmin din dərslərində İslamın müqəddəs kitabı olan Qurani-Kərim öyrədilməli, Quranda keçən məsələlər uşaq vaxtından izah olunmalıdır ki, sonrakı dövrlərdə onlar hansısa təriqətlərin, məzhəblərin tələsinə düşməsinlər.

Eyni zamanda digər dinlər barəsində də məlumatlar verilməli, digər dinlərin müqəddəs kitablarından müəyyən xüsuslar öyrədilməlidir. Bununla bərabər, mediada, xüsusilə televiziyalarda dini verilişlər olmalıdır; orada Quran ətraflı izah olunmalı və Qurandan əlavə uydurma məlumatlar burada əksini tapmamalıdır. Bu yolla biz elmi dini maariflənmənin güclənməsinə nail olub, dini radikallaşmanın qarşısını müəyyən dərəcədə almış olarıq.

Dini radikallaşmanın ikinci səbəbi kimi sosial-iqtisadi məsələləri göstərmək olar. Bir çox ölkələrdə təhlükəli təriqətlərə qoşulanların əksəriyyəti cahil, savadsız, işsiz və yoxsul adamlardır ki, onlar belə təriqətlərin aldadıcı təsirinə tez düşürlər və ya hansısa sosial səbəbdən bir şeylər əldə etmək üçün bu təriqətlərə qoşulurlar.

Əgər bu insanların normal həyat şəraiti, iş şəraiti, təhsili və sosial vəziyyəti yaxşı olsa, belə təhlükəli təşkilatlara, təriqətlərə, qruplara üzv olub orada fəaliyyət göstərməkdə maraqlı olmayacaqlar. Biz mediada da canlı şahidi oluruq ki, belə təhlükəli qruplar insanları pulla və din adı ilə öz üzvlüyünə qəbul edib istifadə edirlər. Nəzərə alsaq ki, onlar üçün ən rahat hədəf sosial qayğıya ehtiyacı olan, ağır vəziyyətdə və işsiz, yoxsul olan insanlardır, onları öz tərəflərinə çəkmək daha rahatdır. Bu baxımdan, ölkədə həyata keçirilən sosial siyasət elə olmalıdır ki, bütün insanların normal yaşayış şərtləri, sosial hüquqları, sosial rifahı, təhsili, iş məsələsi, asudə vaxt keçirmək məsələsi düzgün təmin olunsun ki, belə zərərli meyillərə maraq göstərməsinlər.

Hər bir halda həm dövlət (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Mənəvi Dəyərlər Fondu), həm ictimai institutlar (QHT-lər, dini icmalar və s), həm də də media bu sahədə ciddi maarifləndirmə işləri aparmalıdır. Bundan başqa, insanların sosial ehtiyacları ödənilməlidir ki, onlar ehtiyac ucbatından hanısasa radikal qruplara qoşulmasınlar.

# Josep Borrelli ağlının gücünə deyil, Makronun dəstəyinə arxalanır



*Avropa İttifaqının nümayəndəsi Azərbaycanın dağıdıcı müxalifətinə pul qazanmağın yolunu da başa salır*

Mövcud reallıq ondan ibarətdir ki, bəzi hallarda iş qurmaq, maddi imkanlar əldə etmək üçün qismən də olsa ağır yük qaldırmaq, çətin, üzücü proseslər keçmək lazım gəlir. Ancaq elə vasitələrdə var ki, "nə yuğurdum nə yapdım, hazırca kökə tapdım" elə məsələndə deyildiyi kimi əziyyət çəkmədən, aşağı-yuxarı baş sındırmadan pul qazanmaqda olur. Elə götürək dağıdıcı müxalifət düşərgəsində təmsil olunan bəzi partiya mənsublarının Azərbaycan dövləti haqqında şər və böhtanları qarşılığında xaricdəki ağalarından böyük məbləğdə qrantlar almalarını. Hansı ki, qrant ayıran maliyyə mərkəzləri Azərbaycana qarşı düşmən münasibətdədir. Tərəflərin maraqlarının üst-üstə düşməsi bir-birini qane etdiyindən əməkdaşlıq edirlər.

Xüsusilə də, bu cür əməkdaşlıq Azərbaycanda təşkil edilən beynəlxalq tədbirlər ərəfəsi daha da güclənir və geniş xarakter alır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ərəfəsi və konfransı keçildiyi dönəmdə yerli və xarici qüvvələr əməkdaşlıq əlaqələrini bir qədər də genişləndiriblər. Xüsusilə də bu istiqamətdə Avropa İttifaqı, onun Xarici İşlər və Təhlükəsizlik Siyasəti Məsələləri üzrə ali nümayəndəsi Cozef Borrelli daha çox canfəşanlıq göstərir. Cozef Borrelli ona verilən statusun imkanlarından sui-istifadə edərək Azərbaycana qarşı hər cür hədyanlar, şər və böhtanlar səsləndirir. Bəzən Fransanın, Hollandiyanın və digər Qərb siyasi dairələrin sifarişlərini yerinə yetirdiyini də gizlətmir. Misal üçün onun X platformasında yazdığı statusunda "Biz Fransa və Hollandiyanı dəstəkləyirik" deyə bildirməsini göstərmək olar. Bu cür fakt onu təsdiq edir ki, Avropa İttifaqı, onun rəsmi nümayəndəsi C.Borrelli Fransanın müstəmləkə altında saxladığı xalqlara divan tutmasına, insanları kütləvi şəkildə qətlə yetirməsinə, şəhər və qəsəbələri dağıtmasına haqq qazandırır.

## COP29-u siyasiləşdirmək tapşırığı əvvəlcədən planlaşdırılmışdır

Azərbaycan dövlətinin müstəmləkə altında əzilən xalqların yanında olması, onların azadlıq mübarizələrinə dəstək göstərməsi Avropa İttifaqının narahatlığına səbəb olub. Bu səbəbdən də C.Borrello kimi ələ baxım funksiyasını yerinə yetirən rəsmilər vasitəsi ilə Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa cəhd edirlər. Bakıda möhtəşəm şəkildə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası onlar üçün Azərbaycana qarşı məkrli niyyətlərinin həyata keçirilməsində bir vasitəyə çevrilib. Xatırlatmaq lazımdır ki, hələ parlament seçkiləri ərəfəsi, yəni avqustun avqustun 12-də Avropa İttifaqının Bakıdakı ofisində səfir Piter Mixalko, ofisin bəzi əməkdaşları və Aİ-yə daxil olan ölkələrin Azərbaycandakı səfirlərinin iştirakı ilə AXCP sədri Əli Kərimli, Müsavat Partiyasının sabiq və indiki sədrləri İsa Qəmbər və Arif Hacılı, həmçinin müxalifəti təmsil edən daha bir neçə şəxsin iştirakı ilə görüş keçirilmişdir. Piter Mixalko müxalifətin hazırkı fəaliyyətsizliyi məsələsinə toxunaraq, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti Məsələləri üzrə ali nümayəndəsi Cozef Borrellinin yaranmış durumdan ciddi narazı qaldığını müxalifət təmsilçilərinin diqqətinə çatdırıb. P.Mixalko deyib ki, uzun illərdir ABŞ və Aİ müxalif qüvvələrin fəallığının təmin edilməsi, hakimiyyətə təsir və təzyiq imkanlarının gücləndirilməsi üçün müxalifətə böyük vəsaitlər ayırıb. Bunun müqabilində isə cəmiyyətin narazı hissəsini arxasınca aparmalı olan müxalifət fəaliyyətini yalnız virtual məkanda replikalar paylaşmaqla, müxalifətçiliyi imitasiya etməklə məşğuldur. O, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti Məsələləri üzrə ali nümayəndəsi Cozef Borrellin sözlərini çatdıraraq deyib ki, müxalifət bu məsələlərdə xüsusi fəallıq göstərməli, hakimiyyətə maksimum təzyiq göstərməli, onun yumşalmasına və geri çəkilməsinə nail olmalıdır. P.Mixalko COP29 -un keçildiyi dönəmdə nələrin etməyin vacibliyini dağıdıcı müxalifətə başa salmağa çalışmışdır. Bildirmişdir ki, COP29-un keçirildiyi günlərdə cəmiyyəti silkələmək, ayağa qaldırmaq üçün əhəmiyyətli işlər görmək, addımlara atmaq lazımdır:

"Bütün bunları təşkil etmək üçün müxalifətin fəaliyyət proqramı olmalıdır və bu proqrama uyğun da tədbirlər həyata keçirilməlidir. Əsas vəzifə COP29-u mümkün qədər siyasiləşdirmək və beynəlxalq ictimaiyyətin diqqətini bu mühüm tədbiri keçirən ölkədə mövcud problemlərə cəlb etməkdir".

Məlumat üçün qeyd etmək lazımdır ki, C.Borrelli keçmişi qaranlıq olan və bu gündə qaranlıq yolla fəaliyyətini davam etdirən ermənipərəst şəbəkənin fəal üzvlərindəndir. C.Borelli Avropa İttifaqında Azərbaycana qarşı çıxış edən ən fəal şəxslərdən biridir. 44 günlük müharibədən sonra onun müntəzəm qaydada verdiyi açıqlamalar Ermənistanın mövqeyinin müdafiəsi və Azərbaycanın təcavüzkar kimi təqdim olunması məqsədi daşıyıb.

C.Borrell Aİ missiyasının Ermənistana göndərilməsi, onun hərbləşdirilməsi və Qarabağ ermənilərinin müdafiəsi istiqamətində atılan addımların əsas təşəbbüskarı olub, Azərbaycan ərazilərini tərk edən ermənilərin sayını qəsdən şişirdərək 150 min nəfər kimi qeyd edib. Həm xarici, həm də Azərbaycan mediasında C.Borrellin tərcümeyi-halı, fəaliyyəti və hazırkı mövqeyinin səbəbləri ilə bağlı çoxsaylı materiallar verilib. Qeyd edilib ki, C.Borrel separatçı Kataloniyanın Pobla de Segur kəndində anadan olub və bu bölgənin bir gün azad ola biləcəyi arzusu ilə yaşayıb. O, 1974-cü ildə İspaniyanın Sosialist Fəhlə Partiyasına üzv olub və Kommunist İnternasionalının ideyalarını bölüşüb. 1986-cı ildə Barselona əyalətindən İspaniya parlamentinə seçilən Borrell 2004-cü ildə Avropa parlamentində kürsü əldə edib və "Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı"nın boz kardinalı hesab olunur. Avropa Parlamentinin Azərbaycana qarşı fəaliyyətində bu fraksiyanın və şəxsən Borrellin ciddi rolu var. Onun fəaliyyəti qalmaqalsız olmayıb: 1982-1987-ci illər arasında vergi bəyannamələrini təqdim olunmaması izahı ilə külli miqdarda gəlir əldə edən Borrel qadın "Flamenqo" ifaçısı Lola Floresə qarşı seksual təzyiq göstərib və bu, Madrid məhkəməsi tərəfindən təsdiqlənib.

## Avropa İttifaqının pozucu planları COP29-da iflasa uğradıldı

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yüksək səviyyədə təşkili və həyata keçilməsi P.Mixalkonu, C.Borellini və onların təmsil olunduqları şəbəkəni ciddi narahat edib. Bu baxımdan total qarayaxma kampaniyası həyata keçirirlər. Hətta COP29-u siyasiləşdirməklə tədbirlə bağlı siyasi çağırışlar edirlər. Beynəlxalq məhkəmənin COP29-un keçildiyi bir dönəm də Azərbaycanda yaşayan bir neçə nəfərin iddia ərizəsini qəbul edərək onların maraqlarına uyğun qərarlar qəbul etməsi təsadüfi sayıla bilməz. Niyə məhz COP29-un keçildiyi bir zamanda belə bir qərar qəbul edilir və icrasına nəzarət Avropa Şurası Nazirlər Komitəsinin öhdəsinə buraxıb? Halbuki Əli Kərimli, Tofiq Yaqublu, İlham Hüseynov, Vahid Məhərrəmov, Nurəddin Məmmədli və Emil Salimov Azərbaycan qanunvericiliyinə əsasən ciddi qanun pozuntularına yol vermişlər. Məhkəmə isə heç bir araşdırma aparmadan və sübutları nəzərə almadan sifarişli qətnamə qəbul edib. Təbii ki, qərar C.Borrellinin və digər ermənipərəst dairələrin sifarişi ilə qəbul edilib. C.Borelli X platformasında paylaşdığı statusunda məhkəmə qərarının qəbulunda rol aldığını gizlətmir. Çünki dağıdıcı müxalifət üzvlərinin hər bir haqqında detallı şərhlər verir və onların iddialarının əsaslı olduğunu sübut etməyə çalışır.

Bununla yanaşı, C.Borrelli cəngəllik doğumlu məxluqlardan olduğunu nümayiş etdirən fikirlər qeyd edib. Bildirib ki, "Avropadan kənar ölkələr cəngəlikdir və bu əraziləri vəhşi qanunlarla idarə etmək lazımdır". C.Borrellinin küçə psixalogiyasına xas sayıqlamasına Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev məntiqli, əsaslı formada cavab verib. Hikmət Hacıyev X sosial şəbəkəsindəki hesabında paylaşımında qeyd edib ki, Avropa İttifaqının "bağ", dünyanın qalan hissəsinin isə "cəngəllik" kimi təsvir edilməsi son dərəcə təəssüf doğurur. Bu bəyanat müstəmləkə dövrünün "biz və barbarlar" narrativindən başqa bir şey deyil: "İnkişaf etməkdə olan kiçik ada dövlətləri, eləcə də Aİ üzv ölkələrinin dənizaşırı regionları iqlim dəyişikliyindən çox əziyyət çəkirlər. Lakin özünüidarəetmədən məhrum edilmiş dənizaşırı regionlar öz narahatlıqlarını ifadə edə bilmir və onlara məhəl qoyulmur. COP29-da Azərbaycan hər bir səsin eşidilməsi üçün inklüziv platforma təqdim edir. Aİ-yə üzvlük neo-müstəmləkə idarəçiliyini saxlamaq və dekolonizasiya konsepsiyasını rədd etmək üçün imtiyaz vermir və nəzərə almaq lazımdır ki, Aİ-nin bəzi üzv ölkələrinin acınacaqlı müstəmləkə idarəçiliyi və utancverici qul ticarəti təcrübəsi var".

Hikmət Hacıyev onu da qeyd edib ki, Azərbaycan COP29-un təşkilatçısı kimi beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Lakin EEAS-ın Avropa İttifaqına üzv ölkələrə COP29-da iştirak etməmələ bağlı təlimat göndərməsi tamamilə qəbuledilməzdir: "Eyni qaydada bəzi Aİ ölkələri diplomatik kanallarından istifadə edərək digər dövlətləri COP29-da iştirak etmək fikrindən daşındırmağa çalışdınız. Bunu etməklə siz COP prosesini pozmağa çalışırdınız. Lakin bütün bu cəhdlər uğursuz oldu. COP29-da 80-dən çox dövlət və hökumət başçısı iştirak edib. 70 000-dən çox iştirakçı qeydiyyatdan keçib. Sadəcə xatırlatmaq istəyirəm ki, COP prosesi BMT-yə və dünyaya məxsusdur. Bütün bu səmərəsiz hücumlara baxmayaraq, Azərbaycan COP29-un təşkilatçısı və sədri kimi COP-un inklüzivliyini təmin etmək üçün əlindən gələni etməyə və qlobal iqlim gündəliyində gözlənilən nəticələrə nail olmaq məqsədilə tərəflərlə konstruktiv şəkildə işləməyə davam edəcək".

"Yalan ayaq tutar amma yeriməz" el məsəlində deyildiyi kimi, Frank Şveber, Cozef Barrelli kimi üzdəniraq məxluqlar Azərbaycana qarşı nə qədər şər və böhtanlar səsləndirsələr də, uduzan və gözdən düşən özləri olacaq. Çünki Azərbaycan haqlıdır və haqq yolundadır. Heç bir qüvvə Azərbaycana qarşı qərəzli mövqeyi ilə təsir edə və yolundan sapındıra bilməz.

**İLHAM ƏLİYEV**

# Gələn həftədən Bakıda bu marşrutların fəaliyyəti bərpa edilir

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) noyabrın 18-dən başlayaraq bir sıra marşrutların fəaliyyətini bərpa edir. AYNA-nın məlumatında deyilir ki, 2, 6, 24 və 46 nömrəli müntəzəm şəhərdaxili marşrutların hərəkət sxemləri bərpa ediləcək.

Mərhələli şəkildə digər müntəzəm marşrutların da fəaliyyətinin bərpa edilməsi həyata keçiriləcək.



***Məcburi köçkün adı altında 30 ilə yaxın yaşamış vətəndaşlarımız artıq bu gün öz doğma yurdlarına qayıdırlar. 44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması ilə Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir.***




# Böyük Qayıdış: Cəbrayıla növbəti köç karvanı

***Prezident İlham Əliyev: "O torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar"***

Bildiyimiz kimi, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan ərazilərə köçlər davam edir. Böyük Qaydışımız əzəli Qarabağ və Şərqi Zəngəzur torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Hazırda Azərbaycan dövlətinin qarşısında işğaldan azad edilmiş ərazilərin bərpası, davamlı inkişafı və məcburi köçkünlərin doğma yurda qayıdışının təmin edilməsi kimi şərəfli vəzifə durur.





### CƏBRAYIL ŞƏHƏRİNDƏ 583 NƏFƏRİN DAİMİ MƏSKUNLAŞMASI TƏMİN EDİLİB

Bu yaxınlarda daha bir köç karvanı Cəbrayıl şəhərinə - doğma yurda dönüş etdi. Cəbrayıl şəhəri daha 30 ailə olmaqla, 150 nəfərə qucaq açıb. Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Bununla da Cəbrayıl şəhərində 163 ailənin, yəni 583 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələrin Cəbrayıl şəhərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb.

Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışı olub. Bu tam orta məktəblə yanaşı, Cəbrayıl şəhərində daha 3 məktəb də tikiləcəkdir. Cəbrayıl şəhərində alkoqolsuz içki məhsulları istehsalı kompleksinin, "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməli Azərbaycan Prezidenti tərəfindən qoyulub. Eyni zamanda Cəbrayıl rayonunun Soltanlı kəndində "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin, Litvanın "Dominari" şirkətinin mebel klasterinin təməli qoyulub.

Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan Cəbrayılda müasir infrasturuktur yaradılır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev üç il əvvəl Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını edib. Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və "Quzğun" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib. Dövlətimizin başçısının tapşırığına əsasən işğaldan azad olunan ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir.

### QARABAĞDA VƏ ŞƏRQİ ZƏNGƏZURDA 30 MİN İNSAN MƏSKUNLAŞIB

Qarabağda və Şərqi Zəngəzurda görülən işlərin miqyası genişlənib. Məlumdur ki, 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət proqramı"na müvafiq olaraq, işlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və görülən işlərə dövlət başçımızın şəxsən nəzarət etməsi, onu deməyə əsas verir ki, tezliklə işğaldan azad edilən ərazilərimiz cənnətə çevriləcək. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ümumilikdə, təxminən 30 min insan məskunlaşıb. Belə ki, doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərlə yanaşı, hazırda bu bölgələrdə aparılan bərpa-quruculuq işlərinə minlərlə işçi qüvvəsi cəlb olunub. Bu gün təkcə Xankəndi şəhərində 6 mindən çox insan yaşayır. Onlardan 1300-dən çoxu Qarabağ Universitetində çalışır və ya təhsil alır. Daha 500 nəfər isə Nizami Gəncəvi adına Xankəndi şəhər tam orta məktəbində işləyənlər və təhsil alanlardır. Xatırladaq ki, Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olub. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb. "Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər", - deyə Prezident bildirib.

Ümumiyyətlə, azad edilmiş ərazilərdə həyata keçirilən işlərdə 20 min nəfərdən çox insan çalışır. Qısa bir zamanda Böyük Qayıdışın ilk karvanı olan Ağalıya edilən köç sonralar işğaldan azad olunan digər ərazilərə də yol aldı. Bu Azərbaycanın gücünün göstəricisidir.

İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, insan kapitalının davamlı inkişafını təmin edir. Bildiyimiz kimi, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Bu prioritetlərə söykənən dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilib.

### "AZƏRBAYCAN XALQININ ƏYİLMƏZ RUHUNU QARABAĞA VƏ ŞƏRQİ ZƏNGƏZURA QAYIDAN SOYDAŞLARIMIZIN TİMSALINDA GÖRÜRÜK"

Rəşadətli Ordumuzun 2023-cü il sentyabrın 19-da Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri hərb tariximizə daha bir parlaq səhifə kimi yazıldı, qarşıya qoyulan hədəflərə 24 saatdan da az müddətdə nail olundu.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın reallaşması üçün yüksək qətiyyət və əzmkarlıq göstərir. Bu günədək işğaldan azad olunmuş ərazilərimizə 9 minə yaxın keçmiş məcburi köçkün köçürülüb. Prezident İlham Əliyev Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin abidəsinin açılış mərasimində çıxışı zamanı xalqımızın əyilməz ruhunu belə ifadə etmişdi: "Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar".

Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər əzəli sakinləri qoynuna alır.

***Zümrüd BAYRAMOVA***

# Dolğular və XƏRÇƏNG

***Günümüzdə dolğu qadın və kişi olmaqla demək olar ki, hər yaşda hamımızın tərəddüd etmədən etdiyi bir prosedurdur. Ancaq biz bunun üçün yalnız məqsədimizə diqqət yetiririk və işi görən şəxsin bacarıqlı olub olmadığını araşdırmırıq və ya orta uzunmüddətli dövrdə baş verə biləcək mümkün yan təsirləri çox düşünmürük. Bəs, bu maddələr xərçəngə çevrilə bilərmi? Axı bədəninizə yad maddə vurulur, onun tamamilə zərərsiz olması mümkündürmü?***



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Estetik və kosmetik dermatologiyada dolğular dərinin müxtəlif təbəqələrinə müxtəlif maddələrin yerləşdirilməsi prosesidir. Tətbiq edilən məhsul dəridə əskik olan toxumaları əvəz edərək və ya hüceyrələrin yenilənməsinə səbəb olaraq müəyyən həcm yaradır. Bu səbəblə dərini nəmləndirmək, cizgilərin, qırışların, çapıqların müalicəsini dəstəkləmək və ya toxuma itkilərini əvəz etmək üçün edilə bilər. Bundan əlavə, üz konturları düzəldilə bilər və sağlam bir dəri görünüşünə kömək edə bilər.

## Dolğuların xüsusiyyətləri necə olmalıdır?

Dolğular müvəqqəti, yarı daimi və ya daimi ola bilər. Müvəqqəti dolğular yəni tərkibində hialuron turşusu və ya kollagen olan dolğular zamanla dəridə kortəbii olaraq parçalanır və onların ömrü ümumiyyətlə bir ildən az olur.







ARAŞDIRMA

Yarım qalıcı doldurucuların tərkibində kalsium hidroksiapatit və poli-L-laktik turşu var. Onlar incə kiçik hissəciklərdən ibarətdir və sintetik quruluşa malikdirlər və bir neçə ildir özlərini dəridə qoruyurlar. Daimi dolğular silikon və polimetilmetakrilat mikrosferləri kimi məhsullardan ibarətdir və iki ildən çox qala bilər, lakin mümkün risklərə görə ümumiyyətlə tövsiyə edilmir.

## İdeal dolğuda axtarılanlar

Biouyğun və elastik olmalı, allergiya və ya xərçəngə səbəb olmamalı, yad cisim reaksiyalarına və iltihaba səbəb olmamalı, istifadəyə hazır və tətbiqi asan olmalıdır.

Bütün bu səbəblərə görə bu gün ən çox istifadə edilən dolğu hialuron turşusudur. İnsanın öz yağ toxuması da dolğu olaraq istifadə edilə bilər.

## Dolğunun kosmetik nəticəsinə təsir edən amillər hansılardır?

Tətbiq edildiyi sahəyə və istifadə edilən texnikaya görə düzgün məhsulun seçilməsi vacibdir. Bütün bunlarla yanaşı, insanın gözləntiləri, həkimin təcrübəsi, daha əvvəl tətbiq etdiyi dolğular, varsa, insanın əlavə xəstəlikləri və istifadə etdiyi dərmanlar dolğunun nəticəsinə və ömrünə təsir edir.

## Dolğunun əks təsirləri nələrdir?

Hər prosedurda olduğu kimi, dolğularda həm erkən, həm də gec dövrlərdə müxtəlif arzuolunmaz yan təsirlər baş verə bilər. Tətbiq yerində ağrı, şişlik, rəng dəyişikliyi, sulanma və infeksiya kimi müvəqqəti yan təsirlərə əlavə olaraq qalıcı çapıqlar, allergik reaksiyalar, damar tıxanması, emboliya və korluq kimi ciddi vəziyyətlər meydana gələ bilər.

## Dolğu zamanı həyati təhlükə adi haldırmı?

Təsdiqlənmiş dolğular ideal əllərdə optimal şəkildə hazırlanmalıdır. İstifadə olunan dolgu məhsuluna, tətbiq üsuluna, tətbiq olunduğu sahəyə, insanın immun sisteminə təsir edən əlavə xəstəliklərə və qan durulaşdırıcı kimi istifadə edilən dərmanlara görə müxtəlif müvəqqəti yan təsirlərin yanında korluq kimi çox ciddi və həyati nəticələrə səbəb olur.

## Dolğu və xərçəng

Dolgu maddələri ilə xərçəngin inkişafı arasındakı əlaqə hələ sübut olunmasa da, təsdiqlənməmiş məhsulların tibbi sənədləri olmadan istifadə edilməsinin və uyğun olmayan şəraitdə dolğuların icrasının nəticələrinin xalq sağlamlığını təhdid edəcəyi göz qabağındadır.

***Ayşən Vəli***





# Ailədən başlanan vətənpərvərlik tərbiyəsi



***Tarix boyu Azərbaycanda ailə müqəddəs hesab olunub. Qədim keçmişə malik xalqımızın tarixi qədər qədim dəyərləri də var. Bu dəyərləri xalqımız həmişə müqəddəs bilib qorumağa çalışıb. Bu gün bizim vətənə, əcdadlarımızın bizə miras qoyduğu dəyərlərə olan sevgimiz, hörmətimiz buradan qaynaqlanır..***

Dahi Azərbaycan alimi Nəsrəddin Tusi özünün "Əxlaqi-Nasiri" əsərində yazır ki, insanlar tək yaşaya, inkişaf edə və kamala çata bilməzlər. Onların bir-birinə, bir ailəyə ehtiyacı var. Çünki insanın bir çox ehtiyacı ailədə təmin olunur.Vətənə sevgi də ailədən başlayır. Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir.

Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Mübariz İbrahimov kimi igid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir.

Artıq bu gün müstəqil respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Gənc nəslin bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə mühitin rolu böyükdür. Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır.

Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət-insan-vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perspektiv işlərində iştirak edən insan yetişdirmək deməkdir.

İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil prosesində, əmək prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir. Ailədə vətəndaşlıq tərbiyəsi yalnız özbaşına axınla kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, vətəni sevməlidirlər. Uşaqlar ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklərlə barışmamalıdır.. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə, vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Azərbaycan xalqı müharibəni arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarı olmuşdur. Hərbi-vətənpərvərlik tərbiyəsini sadəcə olaraq quru sözlərlə, nəsihətlərlə də məhdudlaşdırmaq olmaz.

İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır. Məhz ölkəmizdə aparılan vətənpərvərlik tərbiyəsinin bariz nümunəsini 44 Vətən müharibəsində əldə etdiyimiz qələbə ilə bir daha sübut etdik. Ulu öndərimiz, müstəqil Azərbaycanımızın memarı və qurucusu Heydər Əliyev məhz buna görə də vətənpərvərlik tərbiyəsinə, uşaq və gənclərin vətənpərvər ruhda böyüməsinə xüsusi əhəmiyyət verir və bunu çıxışlarında dönə-dönə təhsil işçilərinə tövsiyə edirdi. Gənclər forumunda Ümumilli liderimiz demişdir: "Bizim gənclər, təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər, xüsusən də humanitar fənlər gərək gənclərimizə Vətənə sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin".

***Vəsilə İmanova***
***ADPU-nin nəzdində ADPK-nin pedaqogika-psixologiya fənn birləşməsinin müəllimi***

# Cəmiyyətin COP29-a baxışı necədir?

***COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir.***



Azərbaycan artıq beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcək. SİA COP29 tədbirinin ölkəmiz üçün əhəmiyyəti, vətəndaşların gözündən tədbirin necə görünməsi ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.

**Şəhər sakini Salman Kərimov:** "Respublikamızda keçirilən COP29 tədbiri dünyanın ən böyük, genişmiqyaslı tədbirlərindən biridir. Beynəlxalq əhəmiyyətlidir. Onun qarşıya qoyduğu ən böyük məqsədlərdən biri də ekologiyanı təmizləmək, çirklənməsinin qarşısını almaq, kimyəvi birləşmələrin havaya atılmasının qarşısını almaqdır. Bunun üçün də inkişaf etmiş ölkələrdən kifayət qədər pul toplanması qarşıya qoyulmuşdur. Hesab edirəm ki, Bakı şəhərində keçirilən bu böyük tədbir həmin tədbirlərin, bu işlərin aparılmasına təkan verəcəkdir. Mən bu tədbiri alqışlayıram, yaxşı tədbirdir. Çünki atmosferə çox böyük miqdarda çirkab tullanılır.

Xəzər dənizinin ətrafında olan bütün restoranların çirkab suları Xəzər dənizinə tökülür. Tədbir görən yoxdur. Yaxşı ki, bu tədbir Azərbaycanda keçirilir. Azərbaycanın nüfuzuna da müsbət təsir göstərəcək".

**Şəhər sakini Gülbəniz Gülməmmədov:** "Beynəlxalq tədbirdir. İqlim dəyişmələri ilə bağlıdır. Bütün bəşəriyyəti narahat edən məsələlərlə bağlı olduğu üçün tədbirin əhəmiyyəti böyükdür. Azərbaycanda keçirilməsinin mahiyyəti çoxdur. Gələcək nəsillərə fayda verməsini istəyərik".

**Şəhər sakini Müşfiq Ələkbərov:** "COP29 təkcə iqlimin dəyişməsi ilə bağlı olan problemin bu konfransda həlli deyil, həm də bütün dünyanın Azərbaycana diqqətidir. Ona görə də Azərbaycan vətəndaşı olaraq Bakımızın, Azərbaycanımızın dünyada təbliğ olunması, tanınmasında COP29-un böyük əhəmiyyəti vardır deyə düşünürəm, dəstəkləyirəm".

Şəhər sakini Tapdıq Abbasov: "Böyük dünyamiqyaslı tədbirin məqsədi kimi ekologiyanın yaxşılaşdırılması, karbon qazının havaya buraxılmasının qarşısının alınması bütün bəşəriyyətə xeyirdir. Dünya bunun üçün birləşməlidir. Tədbirin ölkəmizdə keçirilməsi Azərbaycana da çox fayda verəcək. Azərbaycan Respublikası dünyada tanınacaq, gələn qonaqlar Ermənistanla olan müharibəni, erməni vəhşiliyini, onların vurduğu ziyanı surətdə görəcəklər. Həmçinin qonaqlar Qarabağa gedib uçurumları, dağıntıları, erməni vəhşiliyini, onların vurduğu ziyanı surətdə görəcəklər. Bunun da ölkəmiz üçün əhəmiyyəti çox böyükdür".

**Şəhər sakini Sürəyya Eyvalıyeva:** "COP29 tədbirinin Azərbaycana hər sahədə faydası olacaq, deyə düşünürəm. İqlim dəyişmələri, suyun, havanın çirklənməsi bütün bəşəriyyəti narahat edən məsələlərdir. Azərbaycanda keçirilməsi isə bizim üçün xüsusilə faydalıdır. Bu beynəlxalq tədbirə görə dünya ölkələri Azərbaycana qonaq gəlib, bizim qonaqpərvərliyin də şahidi olacaqlar. Yeməklərimizlə tanış olacaqlar. Ümumiyyətlə, Azərbaycan mədəniyyətini görəcəklər".

***Söylü Ağazadə***

# "Bakcell" "Ən Uğurlu Rebrendinq" mükafatına layiq görüldü




***Qısa zamanda abunəçilərə altı innovative məhsul təqdim edən "Bakcell", reklam və marketinq dünyasının mühüm beynəlxalq müsabiqələrindən biri olan "Felis" tərəfindən "Ən Uğurlu Rebrendinq" mükafatına layiq görülüb. Qeyd edək ki, "Bakcell" rebrendinq zamanı "Meta" və "Alphabet" kimi dünyanın aparıcı brendləri ilə işləyən İspaniyanın qlobal konsaltinq şirkəti - "Saffron"la əməkdaşlıq edib. "Bakcell"in son aylarda abunəçilərə təqdim etdiyi innovative məhsullar arasında "Star Portfolio", "Birinci Tarif", "Bakcell Kart", "Tarif Məsləhətçisi", "VoWifi" və "Fiber1" yer alır. Şirkət, həmçinin həyata keçirdiyi social layihələri milli qürur fəlsəfəsi altında həyata keçirməklə sektorda lider mövqeyini daha da gücləndirir.***

Qeyd edək ki, "Felis Mükafatları" 19 ildir ki, Türkiyədə reklam və marketinq sektorunda innovative yanaşma və kreativlik baxımından fərqlənən layihələri dəyərləndirir. 2022-ci ildən etibarən bu müsabiqə Azərbaycan üzrə də təşkil edilir.

"Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# "Azərbaycan xalqı çox mehribandır" - HAMZA ADAM

***"Beləliklə, biz müxtəlif ölkələrdən gələn müxtəlif insanlarla qarşılaşdıq və sonra iqlim dəyişikliyi ilə bağlı tədbirlərdə iştirak etdik". Bu sözləri SİA-ya açıqlamasında Qana Respublikasının deputatı Hamza Adam deyib.***



O bildirib ki, təşkilatçılıq çox yaxşı idi, məkan infrastrukturu, nəqliyyat, polis, təhlükəsizlik baxımından tədbir yaxşı təşkil edilmişdir: "Həm də digər köməkçi işçilər də işlərini yaxşı həyata keçirirlər. Mən görürəm ki, bu COP iqlim dəyişikliyini maliyyələşdirmək üçün xüsusi COP-dur.

Nümayəndələr çox yaxşı, çox qonaqpərvər idilər. Onu da deyim ki, Azərbaycan xalqı çox mehribandır. Burada olmağımdan həzz alıram. Geri dönəndən sonra da yenidən Azərbaycana qayıtmaq istəyirəm. Qarşılaşdığım əsas maneə dil baryeri məsələsi ilə bağlıdır. Demək olar ki, 100 nəfərdən bir nəfər ingilis və ya ərəb dilində danışa bilir, ona görə də qarşılıqlı əlaqə qurmaq baxımından çətindir.

Mən bir ölkəyə səfər edəndə, adətən, yerli əhali ilə daha çox ünsiyyətdə olmaq istəyirəm ki, o ölkə haqqında daha çox məlumat ala bilim. Ancaq məhdudiyyətlər, dil problemi olduğu üçün çox çətin oldu. Amma bütövlükdə, çox yaxşı insanların olduğu gözəl bir ölkədir. Ümumiyyətlə, düşünürəm ki, olduğum yerdən həzz aldım. Yerli yeməkləri yemək şansım olmayıb, amma yeyə bildiyim bir neçə yeməkdən həzz almışam. İstərdim ki, daha uzun müddət qala bilim, amma cədvəlimlə bağlı məhdudiyyətlər üzündən şirkətimə qayıtmalıyam. Təşəkkür edirəm".

***Söylü Ağazadə***

# "Psixoloji baxımdan uşaqların neçə yaşında məktəbə getməsi daha düzgündür"



***"Bu suala qəti, birmənalı şəkildə cavab vermək olmaz. Çünki bu, uşağın sağlamlıq vəziyyətindən, psixi inkişaf səviyyəsindən, ünsiyyət vərdişlərindən asılıdır. Fiziki cəhətdən zəif, müxtəlif somatik problemləri olan, tez-tez xəstələnən, yorulan uşaqların 7 yaşından tez məktəbə getməsi məqsədəuyğun deyildir.***

Əlavə əldə edilən bir ildə valideynlər bütün diqqətini uşağın sağlamlığının möhkəmləndirilməsinə, ehtiyac olarsa, loqopedə, psixoloqa müraciət etməklə nitqinin inkişafına, onun psixoloji cəhətdən məktəbə hazırlığına yönəltməlidirlər". Bu fikirləri SİA-ya Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, Günəş Əfəndiyeva bildirib.

Onun sözlərinə görə, hazırda respublikada məktəbə hazırlıq üzrə ixtisaslaşmış müxtəlif dərnəklər, klublar fəaliyyət göstərir ki, həftədə bir neçə dəfə uşaqların burada iştirakı gələcəkdə onların məktəbə adaptasiyasında çox faydalı ola bilər. Bəzən belə fikirlərə rast gəlinir ki, uşaqların məktəbəqədər hazırlığının aparılmasına, ona həftənin, rəqəmlərin və s. öyrədilməsinə ehtiyac yoxdur. Onsuz da, uşaq bütün bunları məktəbdə öyrənəcək və onun erkən belə şeylərə öyrədilməsi gələcəkdə dərsə marağının zəifləməsinə, "uşaqlığının əlindən alınmasına" gətirib çıxaracaq. Lakin qeyd etməliyəm ki, hazırda mövcud ibtidai təhsil proqramı uşaqların minimum səviyyədə də olsa müəyyən biliklərə malik olmasını tələb edir. Hətta bəzi məktəb-liseylərdə tədris proqramlarının xüsusiyyətlərini nəzərə alaraq, uşaqları xüsusi testlərdən keçirərək qəbul edirlər. "Buna görə də, istənilən halda, uşaqların məktəbə hazırlığı məsələləsinə diqqət yetirilməsi zəruridir. Lakin uşağa hansısa biliklər aşılanarkən onun yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Belə ki, məktəbəqədər yaşlı uşaqlara istənilən biliklərin aşılanması əsasən oyun formasında həyata keçirilməli və hər dəfə 10-15 dəqiqədən artıq davam etməməlidir. 6 yaşından məktəbə gedən uşaqların məktəbəqədər hazırlıq proqramlarını keçməsi zəruridir. Yəni burada söhbət yalnız təlim proqramlarından deyil, eyni zamanda sosial-psixoloji hazırlıq məsələlərindən də gedir", - deyə psixoloq sözlərinə əlavə edib. Psixoloqun həmçinin bildirdiyinə görə, uşaqların uşaq bağçaları, məktəbəqədər təhsil müəssisələrinə getməsi çox əhəmiyyətlidir. Burada uşaq həm kollektivdə fəaliyyət göstərməyi öyrənir, həm də sosial rolların, cəmiyyətdə mövcud qayda-qanunların mənimsənilməsi baxımından da ilkin biliklərini, vərdişlərini mənimsəyir.

"Müşahidələr göstərir ki, uşaq bağçalarından məktəbə gələn uşaqlar, evdə ana, nənə, dayə tərbiyəsindən məktəbə qədəm qoyan uşaqlara nisbətən məktəb mühitinə, qaydaqanunlarına və kollektivə daha yaxşı adaptasiya olunurlar. Valideynlərə tövsiyə olunur ki, uşağın hansı yaşdan məktəbə getməsi ilə bağlı psixoloqla uşağın hazırlıq səviyyəsini müəyyənləşdirdikdən və onun məsləhətini aldıqdan sonra müvafiq qərar qəbul etsinlər. Lakin ümumiyyətlə, valideynlər əgər uşaqlarında erkən yaşlarından oxumağa, yazmağa, xarici dillərə və s. marağı müşahidə edirlərsə, öz övladını fiziki və psixoloji cəhətdən məktəbə hazırlıqlı hesab edirlərsə, onların 6 yaşından məktəbə getməsi məsləhətdir", - deyə psixoloq Günəş Əfəndiyeva bildirib bildirib.





Mətanət Məmmədova

# Hərbi xərclərə 7,2, moda-əyləncəyə 14,2 trilyon, iqlimə isə 1 trilyon belə yox...

Bu rəqəmləri BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçirilən 29-cu sessiyasında iştirak edən qadın siyasi ekspertlərdən biri açıqlayıb ki, dünyada bir il ərzində hərbi xərclərə 7,2 trilyon, moda və əyləncəyə 14,2 trilyon maliyyə xərclənir. COP 28-də isə iqlim dəyişmələri ilə mübarizə tədbirlərinə 1 trilyon maliyyənin torpanması təşəbbüsünə baxmayaraq həmin öhdəliyi üzərinə götürən dövlətlər tərəfindən bunun hələ 0,3 faizi də toplanmayıb.

Göründüyü kimi, bəşəriyyətin ən şüurlu canlısı olan biz insanlar yaşadığımız planetdə sağlamlığımızın qeydinə qalmaqdan, ətraf mühiti qorumaqdan dəfələrlə çox müharibə ocaqlarının yaranmasına, onun iqlim dəyişmələrində başlıca rol oynamasına necə böyük məbləğdə pul vəsaiti ayırırıq.

Moda və əyləncəyə ayrılan trilyonlarla maliyyə vəsaiti bizə nə verə bilər? Bax bunu yetərli qədər düşünmədiyimiz üçün dünyada ona bir il ərzində 14, 2 trilliyon vəsait xərclənir.

Lakin meşə yanğınları, karbon emissiyalarının hər gün artması, qlobal istiləşmə prosesinin gündən-günə təhlükəli olması, okean, dəniz, çay və göllərə axıtdığımız zərərli maddələrin su hövzələrində yaşayan canlıların məhv etməsi, yağışın nizamsız yağması, günəşin daha çox isti verməsi, fırtına, sunamilərin yaranması ən şüurlu varlıq olan insanın müharibələrdən və moda-əyləncədən sonra yadına düşür.

Deməli, biz özümüz iqlimə öz əlimizlə zərbələr endirir, lakin onun sağalması, müalicə olunmasında bədxərclik edirik.

Dünyada bir ildə 7,2 trilyon vəsait hərbi xərclərə ayrılır. Dövlətlərin özünü bu vəsaitlə qoruması məlumdur. Bunu qoyaq bir kənara. Bəs dünyadakı müharibələr, bu vəsait hesabına reallaşmırmı? İnsan övladı nə üçün müharibə edir, bunu düşünürükmü? Biz nə üçün torpaqlar, ərazilər uğrunda bir-birimizin necə deyərlər, ətini yeyir, qanını içirik? Nə üçün işğal etmək bəzi dünya ölkələrinin ən ümdə arzusudur? Başqasının torpağı hesabına ərazisini genişlətmək nəyə lazımdır? Hansısa bir ölkəni məğlub edib onun sərvətinə, coğrafiyasına sahib çıxmaq nəyi dəyişir? Milyonlarla insanın bu müharibələrdə məhvində kimlər maraqlıdır, kimlər günahkar? Bu insanların neçə faizini günahsız uşaqlar, taqətsiz qoca və ahıllar, qadın və kişilər təşkil edir, bu necə, kimlərisə narahat edirmi?

Boş, viranə, xaraba qalan ərazilər kiminsə evi, ocağı, sığınacağı, yaşayış yeridir. Onları bu insanların əlindən almaq kimi xoşbəxt edir? Milyonlarla insanın dünyada özünə yer tapa bilməməsi, günəşin altında, şaxtanın qarşısında həyatına davam etməsi kimlər üçün səadətdir? Ac-susuz, kanalizasiya suyu içən, həftələrlə şəxsi gigiyenasının qayğısına qala bilməyən insanların günahı nədir? Onlar nə üçün kimlərinsə milyonlarla qazancı üzərində öz bədbəxt həyatlarını yaşamalıdır? Su tapmamalı, qida ilə mübarizə aparmalı, ciyərlərinə zəhərli havanı çəkməlidir?

Biz nə üçün moda və əyləncəni bu qədər xoşlayırıq? Milli dəyərlərimizə zərbə vuran güclü silah olduğu üçünmü? Axı dünya dövlətlərinin hər birinin bir milli dəyəri, mentaliteti, əxlaq kodeksi və sair var. Moda və əyləncə nə üçün XXI əsrə xərçəng kimi sarılıb? Əyləncə nə üçün həyatımızın vazkeçilməz məqamına çevrilib? Nə üçün dünya insan sağlamlığından, təmiz havadan, bol oksigendən, suların təmizlənməsindən, yanğınların söndürülməsindən, uşaqların ac qarnını doyuzdurmaqdan, gözlərinin yaşını silməkdən, bir gün ərzində acından minlərlə uşaq ölümünün qarşısını almaqdan, vəhşi təbiətin hər gün bir qədər də məhvini görə-görə ona yardım etməkdən, dənizlərin, okeanların canlı aləminə kömək olmaqdan kəsib podyumlarda moda nümayişlərinə, sayı-hesabı olmayan əyləncə mərkəzlərinin sayının daha da artmasına pul səpələyir?

Sözsüz ki, hər hansı dövlətin qorunması üçün hərbi xərclər vacibdir. Əylənmək, istirahət etmək üçün əylənçə mərkəzləri də yaradılmalıdır. Lakin hərbi xərclərin dünyada bir il ərzində 7,2, moda və əyləncənin isə 14, 2 olması fonunda iqlim dəyişmələri ilə mübarizəyə 1 triliyon maliyyə xərci ayırmayan da insanlardır axı? Hansı ki, onun var olması üçün sonuncu özündən öndəki ikidən daha vacibdir.

Bu, bütün dünya insanlarının ən ümdə arzusu olar ki, Bakıda keçirilən 29-cu sessiyada əvvəlki 28 sessiyada iqlim deyişmələri ilə mübarizə üçün 1 triliyon vəsaitin torpanması və özünü doğrultmayan təşəbbüs yenildən müzakirəyə gətiriləcək və burada elə bir qərar veriləcək ki, növbəti COP-da bunun iqlim dəyişmələri ilə mübarizəyə verdiyi uğurlarından danışılacaq. Çünki hərbi xərclərdən də, moda və əyləncədən də vacib iqlimdir. Sağlam iqlim sağlam insan deməkdir. Bu, yoxsa, hərbi xərclər nəyə gərəkdir, moda və əyləncə kim üçündür?..

# "Fast food" qidalanma ilə gənclər hədəfə alınıb







*"Fast food" tez və asanlıqla hazırlanan, qısa zamanda yeyilməyə hazır olan, daha çox kütləvi istehsal edilən qidadır. "Fast food" qida ilə əlaqəli vacib amillərdən daha çox "xidmət sürəti" faktoruna əsaslanır. 1950-ci illərdə gündəlik həyatımıza daxil olan "fast food" restoran şəbəkələri hazırda bütün dünyanı hörümçək toru kimi bürüyüb. Restoranların sayı artdıqca, yeməklərin çeşidi də artır.*



Yüksək kalorili, aşağı qida dəyəri ilə səciyyələnən "fast food" tez-tez həddindən artıq miqdarda şəkər, qeyri-sağlam yağlar və duz ehtiva edir. Bu inqrediyentlər dadı artırmaqla yanaşı, beyinə və bütün orqanizmə zərərləri də artırır. Dünyanın bir çox yerində aparılan araşdırmalar göstərir ki, "fast food" istehlakı piylənmə, hipertoniya, 2-ci tip diabet və ürək-damar xəstəlikləri yaradır. Bu xəstəliklərin ən böyük müəyyən edilmiş səbəbi də artıq kalori, şəkər və qatqı maddələridir. Orta ölçülü bir McDonalds menyusu yediyiniz zaman gündəlik kalori ehtiyacınızın yarıdan çoxunu ödəmiş olursunuz. Həddindən artıq kalori isə piylənməyə səbəb olur. Piylənmədən sonra ürək-damar xəstəlikləri, böyrək problemləri, 2-ci tip diabet və qaraciyər xəstəlikləri kimi problemlər meydana çıxır.

Əsrimizin bəlasına çevrilən piylənmə ətrafımızda kifayət qədər çox insanın problemidir. Hazır qidalar, "fast food" məhsullara olan aludəliyimiz nəticəsində orqanizmdə yağ miqdarının sürətlə artması bu xəstəliyin boy qaldırmasına imkan yaradır. Sağlam ev xörəkləri yerinə ayaqüstü qidalanana çoxdur, kimimiz məcburiyyətdən, kimimiz könüllü. Ləzzətinə heyran olduğumuz "fast food" yeməkləri daha sonra artıq çəki olaraq bədənimizdən sallananda peşman olsaq da gec olur. Arıqlamağa çalışırıq, amma pilləkan yerinə lift, piyada gəzmək yerinə maşına minməyin verdiyi komfort arıqlamaq istəyimizi anında boğur və beləcə piylənmə xəstəlikləri orqanizmimizə dəvət edir.

"Fast food" qidalardakı başqa bir zərərli maddə natriumdur. Tövsiyə olunan gündəlik natrium qəbulu dəyəri 2300 mq-dır. Bir kasa taxıl tərkibli sıyıqda 250 mq natrium varsa, bir dilim pizzada 710 mq natrium var. Orta ölçülü bir McDonald's menyusu yeyəndə 1325 mq natrium qəbul edirsiniz. Bu, gündəlik tələbatın 57%-ni təşkil edir. Natrium həddindən artıq istehlak edildikdə hipertoniya və ürək-damar xəstəliklərinə səbəb olur. Ürək-damar səbəblərindən ölümlərin hər onundan biri natriumla bağlıdır. Orqanizmə qəbul edilən hər 2290 mq natrium üçün təxminən 40 mq kalsium itirilir. Gündə 40 mq kalsium itkisi 10 il ərzində 10% sümük itkisi deməkdir. Bu da gələcəkdə osteoporoza (sümük xəstəliyi) səbəb olur.

Ümumiyyətlə, qida sənayesində hər il minlərlə məhsulun tərkibində olduqca çox çeşiddə qatqı maddəsi istifadə olunur. Hal-hazırda insanlar hazır qidalar vasitəsi ilə gündə təxminən 2000 növ kimyəvi qatqı qəbul edirlər. Dadlandırıcılar, ətirləndiricilər, qatılaşdırıcılar, ağardıcılar, rəng qoruyucuları, köhnəlmə əleyhinə maddələr, nəmləndiricilər, boyalar, aromatlarlar və s. Yəni yediyimiz hər hazır qidanın tərkibində



saysız-hesabsız qida əlavəsi var deyə bilərik.

"Fast food" qidaların yaratdığı başqa bir problem də sonsuzluqdur. Uzun müddət "fast food" istehlakı səbəbi ilə orqanizmə qəbul edilən yağların reproduktiv pozğunluqlara səbəb olduğu bildirilir. Reproduktiv və inkişaf pozulmaları ilə əlaqədar olaraq, "fast food" istehlakının da aybaşı nizamsızlığına, dəridə səpki və sızanaqlara səbəb olduğu düşünülür. "Fast food" dedikdə ağlımıza gələn təkcə tez hazırlanan qidalar deyil, həm də onlarla bərabər qəbul edilən qazlı içkilərdir. Bu qazlı içkilərin bir çoxunda "fast food"dan 10 dəfə çox şəkər var. Həddindən artıq şəkər daha çox yeməyə və zamanla şəkərə aludə olmağa səbəb olur.

"Fast food" istehlakı qan şəkəri səviyyələrində balanssızlığa səbəb ola bilər ki, bu da əhval-ruhiyyəmizə təsir edə bilər. Bundan əlavə, trans yağlar və şəkər orqanizmdə yaddaş və öyrənmə qabiliyyətini iflic edir. Trans yağlar beyində Alzheimer xəstəliyinin əlaməti olan beta-amiloid lövhələrinin əmələ gəlməsinə səbəb ola bilər. Qısa müddətdə belə, bu cür yağlarla zəngin qidalanma beynin öyrənmə qabiliyyətini zəiflədə bilər. Yüksək şəkər idrak qabiliyyətinin azalmasına təsir edir. Şəkər və karbohidratlarla zəngin "fast food" menyuları konsentrasiya qabiliyyətinin azalmasına səbəb olur. Xüsusilə inkişaf etməkdə olan beyinlərə - uşaqlar və yeniyetmələrə təsir böyükdür. Bu, onların akademik performansına və davranışlarına təsir edə bilər, çünki beyin diqqəti saxlamaq və emosiyaları tənzimləmək üçün mübarizə aparır, amma mübarizə üçün silahı yoxdur. Bu silah sağlam qidalanmadır, sağlam qida yerinə fast-food qəbul olunursa mübarizə üçün təminat yoxdur.

"Fast food" yüksək kalorili olduğuna görə sürətli enerji artırır, amma zamanla enerji səviyyəsinin sürətlə azalması müşahidə olunur. Yüksək şəkər tərkibi insulinin sürətlə artmasına, qan şəkərinin səviyyəsinin aşağı düşməsinə və yorğunluğa səbəb olur. Bu yorğunluq təkcə fiziki deyil; o, həmçinin idrak funksiyasına təsir edərək, diqqəti cəmləməyi və ayıq qalmağı çətinləşdirir.

Əsas qida maddələri, antioksidantlar və sağlam yağlar yerinə fast foodda olan qatqı maddələri, trans yağların təsiri ilə beyində oksidləşdirici stress və iltihab artması baş verir. Bu zaman Alzheimer kimi neyrodegenerativ xəstəliklərin inkişafı sürətlənir. "Fast food"da omeqa-3 yağ turşuları və vitaminlər kimi qoruyucu qidaların olmaması da beyin neyronlarının zədələnməsinə səbəb olur.

**Lalə Mehralı**




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Aleksandr Razuvayev: "Azərbaycan "Bakı COP29"-da Qərbi öz yerinə oturtdu- bu, hörmətə layiqdir"

***Tanınmış rusiyalı politoloq Aleksandr Razuvayev COP29 iqlim konfransının Azərbaycanda keçirilməsi faktı və Azərbaycan prezidentinin Qərbə ünvanladığı tənqidi bəyanatlarla bağlı "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***



**- Aleksandr Yuryeviç, BMT-nin İqlim Konfransı COP29 Azərbaycana nə gətirəcək?**

- Sözsüz ki, bu, dünyada Azərbaycanın qlobal statusunu artıracaq. Bunlar da siyasi bonuslar, investisiyalar və digər əlaqəli olanlardır. Artıq deyə bilərik ki, Bakı dünya paytaxtlarından biri statusu alır. BMT-nin Bakıda keçirilən iqlim konfransında 196 ölkədən 70 mindən çox nümayəndə iştirak edir- Qərb qüvvələrinin COP29 ərəfəsində ənənəvi anti-Azərbaycan təbliğat kampaniyası aparmaq cəhdlərinə baxmayaraq. Eyni zamanda, Bakıda keçirilən konfransda əksər Qərb dövlətləri iştirak edir. Azərbaycana getməkdən imtina edənlər isə sadəcə olaraq ikiüzlüdürlər. Və hətta öz milli maraqlarının xeyrinə deyil.

Azərbaycan COP29-a ev sahibliyi edən ölkə kimi, iqlim gündəmində irəliləyişlərlə yanaşı, qarşısına iddialı vəzifə qoyub- münaqişə tərəfləri olan qlobal Şimal və qlobal Cənub arasında körpülər qurmaq. Və o, Bakıda keçiriləcək iqlim konfransının 12 günlük müddətində dünyanın bütün münaqişə tərəflərinə atəşkəs elan etməyi təklif edib. Təbii ki, Azərbaycan sədrliyinin belə nəcib yanaşmasını təqdir etməyə bilməz.

Yaxşı olardı ki, bütün münaqişələr dayandırılsın və bu münaqişələrin gələcəyi ilə bağlı danışıqlar Bakıda aparılsın. Amma gördüyümüz kimi, bu baş vermədi. Çünki bu, reallıqdır və bu siyasətdir.

Bu yaxınlarda Rusiya prezidentinin xüsusi nümayəndəsi Ruslan Edelgeriyevin Trampın təmas qurmaq niyyətində olduğu halda Bakıya gəlməsini təklif etdiyini xatırlayırıq. Azərbaycan danışıqlar və ciddi münaqişələrin həlli üçün belə bir platforma ola bilər. Biz xatırlayırıq ki, Rusiya, Amerika və Avropa təhlükəsizlik qüvvələri bir neçə il əvvəl Bakıda danışıqlar aparıblar.

**- Azərbaycan Prezidenti bir daha, bu dəfə COP29-da Qərbi çox sərt tənqid etdi. Qeyd etdiyiniz kimi, prezident Bakı iqlim konfransı ərəfəsində Qərb mətbuatında aparılan çirkli informasiya kampaniyasından danışıb. Bir gün əvvəl yüksək Qərb rəsmilərinin iştirakı ilə Azərbaycan prezidenti Fransanı, Hollandiyanı neokolonializmdə, Aİ strukturlarını isə korrupsiyada ittiham edib. Prezident həmçinin Borrelin Qərb dünyasını "Cənnət bağı", dünyanın qalan hissəsini "cəngəllik" kimi müqayisə etməsi ilə bağlı qalmaqallı ifadəsini xatırladıb. Və Qərbi digər dövlətlərin işlərinə qarışmamağa çağırıb. Bundan sonra Paris fransalı nazirin Bakıda keçiriləcək konfransa səfərini ləğv etdiyini açıqlayıb. Borrell isə Bakıya iqlim konfransını pozmaq perspektivləri barədə xəbərdarlıq edib...**




- Azərbaycan suveren, müstəqil ölkədir və bu gün Qərb onun üçün ağa deyil. Azərbaycan ərazi bütövlüyünün bərpası nəticəsində (Bakı üçün bu, prinsipial məsələ idi) öz problemlərini həll etdi, Azərbaycan təkcə regionda deyil, həm də dünyada statusunu artırdı. İndi də o, təkcə özünə deyil, dünyanın digər dövlətlərinə də ədalət siyasəti aparır. Bu, çox nəcib bir yanaşmadır. Və burada İlham Əliyev kifayət qədər riskli addım atdı: o, Qərb dövlətlərini, hətta qlobal Qərb strukturlarını Qərb rəsmilərinin yanında çirkli, ədalətsiz siyasət yürütməkdə ittiham etdi. Bu ədalətli dünya üçün çox ciddi çağırışdır. Bakı, necə deyərlər, Bakı COP29-da Qərbi hamının qarşısında öz yerinə oturtdu, bu, çox dəyərlidir və hörmətə layiqdir.

Azərbaycan öz istədiyi kimi davranır. Prezident İlham Əliyev isə Qərb liderlərinə açıq şəkildə deyir ki, onlar səhv edirlər. BRİCS sammitinin göstərdiyi kimi, Rusiyanın göstərdiyi kimi, Azərbaycan da göstərdi- dünya təkcə Qərbdən ibarət deyil. Qərbin başqalarına diktə etdiyi dövrlər geridə qaldı.

**- Azərbaycan Ermənistanı Bakıda keçiriləcək COP29-a dəvət etdi. İndiyədək İrəvandan heç kim sammitə gəlməyib. Üstəlik, Azərbaycana səfərlə bağlı İrəvan daha çox söz oyununa bənzəyən bəyanatlar verir. Ermənistan nümayəndəsi niyə gəlmədi?**

- Bu, Ermənistandakı daxili komplekslərdən qaynaqlanır. Bakıya necə gedəcəklərini deyirlər və s. Bakıda keçirilən iqlim konfransında yüksək vəzifəli şəxslərdən biri Ermənistan Respublikasını təmsil etsəydi, heç nə baş verməzdi. Üstəlik, Ermənistan əsl sülhsevər addım və Azərbaycanla münasibətləri yaxşılaşdırmağa hazır olduğunu nümayiş etdirərdi. Və özünü qlobal tendensiyaların iştirakçısı kimi göstərəcəkdi.

**- Bakıda keçirilən konfransdan əvvəl Ermənistan tərəfi Azərbaycan təhlükəsizlik qüvvələri tərəfindən Bakıda saxlanılan Qarabağın erməni separatçılarının İrəvana köçürülməsi məsələsini mediada fəal şəkildə qaldırmışdı...**

- Ermənistan, görünür, Bakı ilə bazarlıq edir. Bəs Azərbaycan bundan nə əldə edəcək? Əslində Azərbaycan üçün Ermənistan tərəfinin COP29-a gəlib-gəlməməsi İrəvan üçün olduğu qədər vacib deyil. Bunun müqabilində nə isə vermək Bakı üçün zəifliyin göstəricisi olardı.

Mən də öz növbəmdə Rusiya ilə Qərbin münasibətlərini misal çəkəcəyəm. Çətin vəziyyətə baxmayaraq, Rusiya xarici işlər naziri beynəlxalq tədbirlərə səfər edir. Qərb qüvvələrinin istəklərinin əksinə. Çünki geosiyasi konflikt başqa, zirvə görüşü başqa şeydir.

**- Bakıda keçirilən COP29-da ciddi Rusiya nümayəndə heyəti təmsil olundu...**

- Azərbaycan uzun illərdir deyildiyi kimi, Rusiyanın Cənubi Qafqazda əsl əsas müttəfiqinə çevrilib. Münasibətlərimiz inkişaf edir. Qarabağ məsələsi 2020-ci ilə qədər bu əməkdaşlığa mane oldu. İndi problem aradan qalxıb və ümumi problemlər gündəmə gəlib. Və müttəfiqlik reallaşıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
16 noyabr
2024-cü il

# “Miras birinci növbəli vərəsəyə çatmalıdır"



***“Mülki Məcəllənin 1133-cü maddəsinə əsasən, ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. O bildirib ki, qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır: "Yəni vəsiyyətnamə olmadıqda, qanun üzrə vərəsəlik qüvvəyə minir.***

Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq, ola bilərlər.

Qanun üzrə vərəsəlik zamanı aşağıdakılar bərabər pay hüquqlu vərəsələr sayılırlar:

Birinci növbədə olan vəsələr - ölənin uşaqları, miras qoyanın ölümündən sonra



**MÜNASİBƏT**

doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər).

İkinci növbədə - ölənin bacıları və qardaşları.

Üçüncü növbədə - həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası.

Dördüncü növbədə - xalalar və bibilər, dayılar və əmilər.

Beşinci növbədə - xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları”.

Onun sözlərinə görə, əvvəlki növbənin vərəsələrindən, heç olmasa, birinin mövcudluğu sonrakı növbənin vərəsəliyini istisna edir: ”Məsələn, birinci növbəli vərəsələrdən kimsə sağdırsa artıq ikinci növbədə kiminsə sağ olmasının heç bir əhəmiyyəti yoxdur. Miras birinci növbəli vərəsəyə çatmalıdır.

Mirasın qəbulu zamanı problem yaşamaq istəməyən vətəndaşlar miras qoyanın öldüyü andan etibarən mümkün qədər tez bir müddətdə notariusa müraciət edib vərəsəlik işi açdırmalı və vərəsəlik şəhadətnaməsi almalıdırlar. Məhz bundan sonra onlar həmin şəhadətnamə əsasında miras qalmış əmlaka dair öz adlarına çıxarış ala bilərlər”.

***Söylü Ağazadə***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Niyə taksi tapılmır?



**SƏBƏB AÇIQLANDI**

“Məlumdur ki, sərnişindaşıma və taksi xidməti ilə bağlı xüsusi tələblər qüvvəyə mindi. Bu tələblər sırasında daha çox nələr öz əksini tapdı? Xüsusən buraxılış ili 8 ildən az olan nəqliyyat vasitələrinə daha çox üstünlük verilir. 8 - 10 ildən daha çox buraxılış ili olan taksi xidmətinə buraxılan avtomobil vasitələrinin istifadəsinə qadağalar qoyuldu”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti İlqar Hüseynli deyib.

İlqar Hüseynli sözlərinə belə davam edib: “Bu vaxta qədər xeyli sayda taksi xidmətini həyata keçirən nəqliyyat vasitələri buraxılış ili uzun müddətli olan nəqliyyat vasitələri idi və onların xətdən çıxarılması, xidmətdən kənarlaşdırılması xeyli sayda nəqliyyat vasitəsinin çatışmamazlığına gətirib çıxarır.

Bununla da yanaşı bir çox tələb və normativlər qüvvəyə mindi. Taksi xidmətinin həyata keçirilməsi üçün razılıq sənədinin alınması zamanı xeyli tələblər ortaya qoyuldu və müəyyən taksi xidmətini həyata keçirən sürücülər həmin o normativlərə cavab vermədi. Bu faktura olaraq xeyli sayda taksi xidmətində azalmalara gətirib çıxardı. Xüsusən sürücülük vəsiqəsinin kateqoriyaları, xidmətin yerinə yetirilməsi üçün müəyyən şərtlər, nəqliyyat vasitələrinin xidmətə uyğunluğu və s. məsələlər də xidmətdən xeyli sayda nəqliyyat vasitəsinin azalmasına gətirib çıxardı. Bu da nəticə etibarilə taksi xidmətində vətəndaşların əlçatanlığında problemlərə səbəb oldu.

Xeyli taksi şirkəti var ki, öz nəqliyyat parkını yeniləməli, yeni nəqliyyat vasitələri gətirməlidirlər və onda kifayət qədər xidmət artdıqca bu gecikmələrin də sayı azalmağa gətirib çıxara bilər. Amma hələlik rəsmi statistikaya görə 70 mindən çox taksi xidməti fəaliyyət göstərir ki, hardasa artıq hal-hazırda bunun rəqəmi 40 minə qədər aşağı enib. Xidmətdə çatışmamazlığa gətirib çıxaran səbəb bundan ibarətdir”.

***Ayşən Vəli***


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700